www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 11 iyun 2015-ci il Cümə axşamı № 126 (6154) Qiymәti 40 qəpik

Xəbər

## Bakıda gəlin toyu günü avtoqəzada öldü

yazısı səh.2-də

Gündəm

### ABŞ və Qərbin Azərbaycan hakimiyyətinə "yay sürprizləri"



ABŞ Konqresi, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası siyasi məhbus məsələsini çözməyən rəsmi Bakını müzakirəyə çıxarır

yazısı səh.4-də

### Sabah Türkiyədə millət vəkilləri and içəcək

yazısı səh.2-də

### Nazir oğlunun rüşvətlə fəxri konsul olması iddiasına reaksiya gəldi

yazısı səh.3-də

### Prezident bələdiyyələrin etik davranışı haqda sərəncam imzaladı

yazısı səh.2-də

### Putin Nazarbayevlə Şeyxi niyə mükafatlandırdı...

yazısı səh.10-da

### Partiyalarda yay durğunluğu hökm sürür

yazısı səh.7-də

### Azərbaycan müxalifəti Avropa Oyunlarının açılışına dəvət olundu

yazısı səh.11-də

### Azərbaycan turizmi Gürcüstana uduzur: səbəb AZAL-ın qiymətləridir...

yazısı səh.15-də

### QAT ermənilərin Bakıya gəlişinə etiraz etdi

yazısı səh.12-də

### ANS üzr istədi və aparıcı Elnarəni efirdən qovdu

yazısı səh.2-də

### Putinin Bakı səfəri və yeni Qarabağ açılımı

yazısı səh.13-də

### Türkiyədə suriyalılar naxçıvanlını öldürdü

yazısı səh.14-də

## Qalmaqallı səfir özünü "Qərbin adamı" elan etdi

# MƏMMƏDYAROV ÇIXILMAZ DURUMDA-SƏFİRLƏR GERİ ÇAĞIRILIR

Arif Məmmədovun rus kəşfiyyatına yaxınlığı iddiası ortalığı daha da qarışdırdı; xarici işlər naziri Elmar Məmmədyarovun istefası gündəmdədir; Ölkəmizi Avropa məkanında təmsil edən səfirlərin çoxu vaxtından əvvəl geri çağırıla bilər




yazısı səh.5-də

# Kremlin Bakıya qaz şantajının arxasında Saakaşvili amili

Putinin Azərbaycana səfəri ərəfəsində Rusiya XİN-in "Transxəzər" kəməri ilə bağlı hədəsinin yeni pərdəarxası; Odessaya qubernator təyinatının siyasi əks-sədası Xəzərə çatır, bəs sonra?..

yazısı səh.6-da



### Abbas Abbasov qapı arxasında qaldı

yazısı səh.4-də



*Aynur Camalqızı:*

### "Arif Məmmədov ... çemodanlarımızı daşıyırdı"

yazısı səh. 8 və 9-da




### Bələdiyyə sədrinin qatili Zakir Fərəcovun adamı olub

yazısı səh.7-də

# 11 iyun 2015

YENİ MÜSAVAT
N 126 (6154) 11 iyun 2015



**Müsavat Partiyasının başqanı Arif Hacılı Əhəd İsmayılovu 55 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Əhəd bəy!**

**Sizi 55 llik yubileyiniz münasibəti ilə təbrik edir, Sizə uzun ömür, can sağlığı və demokratik inkişaf uğrunda apardığınız mübarizədə uğurlar arzulayıram.**

**Siz Azərbaycanda başlanan milli azadlıq hərəkatının iştirakçılarından olmusunuz. Eyni zamanda Qarabağ uğrunda gedən döyüşlərdə fəal iştirak etmisiniz.**

**1999-cu ildən Müsavat Partiyasının üzvü kimi partiyanın işində daim fəallıq göstərmiş, öz fədakarlığınızla başqalarına nümunə göstərmisiniz.**

**Müsavat Partiyasının Nizami rayon təşkilatının özək sədri kimi gördüyünüz işlərlə, partiyanın keçirdiyi siyasi aksiyalarda, seçki kampaniyalarında fəaliyyətinizlə Nizami rayon təşkilatının güclənməsində ciddi töhfələr vermisiniz.**

**Fəal həyat mövqeyiniz, işgüzarlığınız, prinsipiallığınız, səmimiyyətiniz partiyadaşlarımız və ictimaiyyət arasında Sizə nüfüz qazandırıb. Əminəm ki, Sizi tanıyanlar, yaxınlarınız hər zaman Sizin kimi əqidəli bir müsavatçının həyat yolu ilə qürur duyacaqlar.**

**Hörmətli Əhəd bəy!**

**Sizi bir daha 55 yaşınızın tamam olması münasibətilə ürəkdən təbrik edir, apardığımız bu müqəddəs mübarizədə uğurlar arzulayıram".**




## Bakıda gəlin toyu günü avtoqəzada öldü

**Bakıda gəlin toyu günü yol qəzasında ölüb. "Report" xəbər verir ki, hadisə Xəzər rayonunun Zirə qəsəbəsində baş verib. Qəza zamanı Xəzər rayon sakini Vəsilə Rzayeva toya hazırlıq üçün "gözəllik salonu"na gedib. Salondan çıxandan sonra isə bəy öz xalası oğlunu gəlini evə aparmaq üçün onun dalınca göndərib. Amma salondan çıxan avtomobil bir qədər gedəndən sonra aşıb.**

Nəticədə öz toyuna hazırlaşan V.Rzayeva hadisə yerində ölüb. Qeyd edək ki, qəza zamanı gəlinin yanında olan və şəxsiyyəti hələ ki, məlum olmayan bir qadın da hadisə yerində dünyasını dəyişib. Qəza ilə bağlı Xəzər Rayon Polis İdarəsində araşdırma aparılır.

## Rüstəm İbrahimbəyov ABŞ-a müalicə üçün gedirmiş



**Kinorejissor, Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyovun səhhətinin qəfildən ağırlaşması səbəbindən onun təcili ABŞ-a getdiyini xəbər vermişdik. Qeyd edək ki, kinorejissor Aznews.az-a açıqlamasında da xəbəri təsdiqləyib və hazırda özünü nisbətən yaxşı hiss etdiyini deyib: "Şükürlər olsun ki, səhhətim yaxşıdır. Amerikadayam, müalicəmi burada davam etdirirəm".**

Ötən gün bir neçə dəfə R.İbrahimbəyovun mobil telefonuna zəng etsək də, telefonu açmadı. Kinorejissora şəfa diləməklə bərabər xatırlatmaq istərdik ki, R.İbrahimbəyov ilk dəfə xərçəngə mübtəla olduğu "Yeni Müsavat"a etiraf etmişdi. Lakin o zaman bunun yazılması məsləhət olmadığı üçün ağır xəstəlik xəbərini ictimailəşdirmədik.

Yalnız bu ilin yazında kinorejissor özü mətbuata xəstəliyi barədə açıqlama verdi və məsələdən geniş auditoriya xəbər tutdu. "Bir ilə yaxındır ki, xərçəng xəstəliyindən əziyyət çəkirəm. Xırdalığına gedib hansı orqanımda xərçəng olduğunu demək istəmirəm. Həm Amerikada, həm də burda müalicə olunuram. Ona görə də Bakıya gəlmək arzum reallaşmır"-deyə, R.İbrahimbəyov bildirmişdi.

**Qeyd edək ki, Rusiyada yaşayan və "Milyarderlər İttifaqı" projesindən sonra Bakıya yolları qapanan R.İbrahimbəyovun vaxtaşırı ABŞ-a səfər etməsini onun yaradıcılığı ilə əlaqələndirirdilər. Tanınmış kino xadiminin Amerika Kino Akademiyasının üzvü olduğu üçün okeanın o tayına səfərlər etdiyi bildirilsə də, iddialar var ki, onun səfərlərinin intensivliyi həm də müalicəsi ilə əlaqədarmış.**

❑ **Vüqar MURAD**

# Sabah Türkiyədə millət vəkilləri and içəcək

## Ölkədə seçki sonrası qeyri-müəyyənlik davam edir

**Türkiyədə 7 iyun parlament seçkilərindən sonra siyasi mühitdəki taym-aut, daha doğrusu, qeyri-müəyyənlik davam edir. Bu da son seçkilərin nəticələrinin yaratdığı situasiya ilə - növbəti hökuməti formalaşdırmaq yolunda yaranmış problemlə bağlıdır.**

Konstitusiyaya uyğun olaraq indiki baş nazir Əhməd Davudoğlu artıq istefa verib. Prezident Rəcəb Tayyib Ərdoğan onu qəbul edərək baş nazir postunda fəaliyyətinə görə minnətdarlıq edib və yeni hökumət formalaşanadək hökumətə başçılıq etməyi ondan xahiş edib. Seçkilərdə ən çox səs toplayan partiya - AKP yeni hökuməti 45 gün ərzində qurmalıdır.

Prezident eyni zamanda yeni hökumətin formalaşması ilə bağlı siyasi qüvvələrə müraciət edib. O, seçkidən sonra yeni proseslərin başladığını və sabitliyin qorunması üçün siyasi partiyaların həssaslıq göstərməli olduğunu bildirib.

"Seçkilərdə iştirakçı sayının çoxluğu əziz millətimizin iradəsinin sandıqda öz əksini tapması və demokratiya məsələsində qərarlılığının ifadəsidir. Nəticənin heç bir partiyaya təkbaşına iqtidar olmaq imkanı vermədiyi bir durumda yarışa qatılan bütün partiyaların bunu sağlam və real dəyərləndirmə kimi qəbul edəcəklərinə inanıram".



Ərdoğan həmçinin barajı keçmiş partiyaları koalisiyalı hökumət məsələsinə heç bir şərt irəli sürmədən qatılmağa çağırıb. Dünən isə o, CHP-nin sabiq lideri, millət vəkili seçilən Dəniz Baykalla görüşüb.

**Dəniz Baykal jurnalistlərə açıqlamasında görüşlə bağlı deyib:** "Görüşdə parlamentin gələcək işləri barədə müzakirə apardıq. Parlamentə müvəqqəti sədrlik edəcəyəm. Görüş zamanı koalisiya barədə danışıqlar olmadı. Çünki bu məsələ partiya sədrlərinin səlahiyyətinə aiddir. Hər ikimiz ölkədəki qeyri-müəyyənlik dövrünün qısa zamanda sona çatması barədə həmfikir olduğumuzu bildirdik. Ərdoğanın hər cür koalisiyaya açıq olduğunu sezdim. Müxalifətin koalisiyasına da müsbət yanaşır. Əgər partiyalar arasında siyasi razılıq əldə olunarsa, koalisiyaya qarşı çıxmayacaq. Erkən seçki çıxış yolu deyil, mütləq koalisiya qurulmalıdır". Baykal az sonra CHP lideri Kamal Kılıçdaroğlu ilə görüşüb.

Qeyd edək ki, uzun müddət CHP başqanı olan Dəniz Baykal gizli kaset qalmaqalı ilə sədr postundan istefa vermişdi.

**Yeni hökumətin qurulması prosesi millət vəkillərinin andiçmə mərasimindən sonra baş tutmalıdır. Deputatlar Türkiyə Böyük Millət Məclisində (TBMM) qeydiyyatdan keçəcəklər. Andiçmə mərasimi cümə günü - iyunun 12-i, saat 15:00-da reallaşacaq.**

❑ **Siyasət şöbəsi**

## Rauf Mirqədirovun səhhəti kəskin pisləşib

**"Dövlətə xəyanət"də suçlu bilinərək haqqında həbs-qətimkan tədbiri seçilən jurnalist Rauf Mirqədirovun səhhəti pisləşib. "Yeni Müsavat" xəbəri jurnalistin vəkili Elmar Süleymanovdan alıb.**

Vəkilin sözlərinə görə, bir neçə gündür Rauf Mirqədirovun arterial təzyiqi kəskin yüksəlir. Həkimlərin müdaxiləsi ilə təzyiq normallaşdırılsa da eyni hal qısa zaman sonra yenidən təkrar olunur.

Elmar Süleymanovun sözlərinə görə, həkimlər Rauf Mirqədirovun durumunu orta ağır kimi qiymətləndirir.

İşini dayandıran "Ayna-Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirov ötən il aprelin 19-da Türkiyədə saxlanılaraq Azərbaycana deportasiya edilib. Jurnalist MTN-in istintaq təcridxanasında saxlanır.

## Bakı sakini kredit borcuna görə özünü öldürdü

**Məcburi köçkün Bakıda özünü şəxsi evinin pəncərəsindən ataraq intihar edib. Nizami rayonunda kişi banka 17000 manat borcu olduğu üçün intihar edib. "8-ci kilometr"də 37 saylı evdə yaşayan və Cəbrayıl rayonundan məcburi köçkün olan şəxsin ölüm faktını araşdıran istintaq orqanına intiharın səbəbi də məlum olub.**

Nizami Rayon Prokurorluğundan bildiriblər ki, 1978-ci il təvəllüdlü Şıxıyev Əliyar Qurban oğlu özünü iyun ayının 5-də binanın beşinci mərtəbəsində yerləşən mənzilin pəncərəsindən atıb. O, aldığı travmalardan bu gün dünyasını dəyişib.

Mərhumun doğmalarının sözlərinə görə, o, banka borclu olduğu 17000 manatı ödəyə bilmədiyi üçün çox narahat idi. Fakt üzrə araşdırma aparılır.

## Avropa Parlamenti Azərbaycana qarşı qətnamə qəbul etmədi



**İyunun 1-də Avropa Parlamentindəki "Yaşıllar qrupu" iyunun 10-da Bakıda keçiriləcək I Avropa Oyunları ərəfəsində "İdman, insan haqları və Bakı oyunları" mövzusunda dinləmələr keçirilməsinə dair təklif irəli sürmüşdü.**

Bu dinləmələrin ideya müəllifləri Avropa Parlamemtinin sədri Martin Şults (keçmiş alkoqolik) və Avropa lesbiyanlarının lideri Ulrike Lunarçek idi.

Ancaq "yaşıllar"ın nümayəndələri, habelə Birləşmiş sollar (GUE) qrupu və ALDE (Avropa naminə liberallar və demokratlar Alyansı) təklif ediblər ki, təkcə dinləmələrlə kifayətlənmək olmaz, həm də Azərbaycana dair xüsusi qətnamə çıxarmaq lazımdır.

Avropa Parlamentindəki antiazərbaycan qruplaşması iflasa uğrayıb. Səsvermə zamanı səslər tən yarı bölünüb, 136 parlamentar qətnamənin qəbulunun lehinə, 136-ə əleyhinə səs verib.

**Reqlamentə uyğun olaraq səslər yarıya bölündüyündən heç bir təklif keçməyib. Beləliklə, Azərbaycana qarşı daha bir qaralama kampaniyası uğursuz alınıb.**

## ANS üzr istədi və Elnarəni qovdu

**Tanınmış aparıcı Elnarə Təhməzovanın verilişinin birində səsləndirdiyi və cəmiyyətdə birmənalı qarşılanmayan fikirlər ətrafında qalmaqal davam etməkdədir. "Anspress" xəbər verir ki, daxil olan müraciətlər əsasında ANS-in Yaradıcılıq Şurası bu məsələni tam obyektiv şəraitdə araşdırmağa başlayıb, aparıcı Elnarə Təhməzovanı efirdən kənarlaşdırıb və onun müəllifi olduğu "İncə Maraqlar" və "İncə+" verilişlərinin yayımının dayandırılması barədə qərar verib. ANS MYMŞ-nın Baş Direktoru Mirşahin Ağayev deyir:**

"Hesab edirik ki, efirdə elə fikirlər səslənib ki, bu doğrudan da həssas tamaşaçının hissiyyatına toxuna, ən azı onları narahat edə bilərdi. Aparıcının fikirlərinə görə kanal rəhbərliyinin məsuliyyət daşıdığını biz dəfələrlə elan etmişik və bir daha bildiririk. Fərqi yoxdur, aparıcı nəyi demək istəyirdi, necə alınıb, fakt artıq ortadadır, tamaşaçı hissiyyatına toxunulub və ANS rəhbərliyi kimi Biz tamaşaçılardan üzr istəyirik". Elnarə Təhməzovanın da mövqeyini öyrəndik. Məlum oldu ki, o da başqa fikirdə deyil: "Mən başa düşdüm ki, səhvim var və ifadələrimdə ehtiyatsız olmuşam, bir şey demək istəmişəm, başqa cür alınıb. Hər halda çox sevdiyim, həmişə hörmətlə yanaşdığım tamaşaçımı incitmişəm, məni bağışlasınlar, onlardan və pis vəziyyətə saldığım telekanaldan üzr istəyirəm".



## Prezident bələdiyyələrin etik davranışı haqda sərəncam imzaladı

**Prezident İlham Əliyev "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Qanunun tətbiqi barədə sərəncam imzalayıb.**

"Qafqazinfo" xəbər verir ki, sərəncamda Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməsi nəzərdə tutulur.

Həmçinin:

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Bələdiyyə qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 126 (6154) 11 iyun 2015



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Cəmil Həsənli "Yeni Müsavat"dan nə istəyir?

**Artıq neçənci dəfədir ki, Milli Şuranın sədri Cəmil Həsənli "Yeni Müsavat" qəzetində Milli Şura və onun haqqında gedən ən kiçik qeydlərə belə reaksiya verir, qəzetimizin ünvanına çox sərt, təhqiramiz ifadələr işlədir. Qəzeti ağır, az qala cinayət xarakterli ittihamlarla suçlayır. Bu məsələ ilə bağlı "Yeni Müsavat"ın baş redaktorunun birinci müavini Azər Ayxanın fikirlərini aldıq.**

## Azər Ayxan: "Onun reaksiyası narahatçılıqdan irəli gəlir, haqqında yazdıqlarımızın hamısı faktdır"

Hörmətli professorun niyə bu cür həssas reaksiya verdiyini ondan soruşduq. Çünki Milli Şura və Cəmil Həsənlinin ünvanına Azərbaycan mediasında, televiziyasında çoxsaylı tənqidlər gedir. Heç birinə cavab vermir, yalnız bir zamanlar yaxşı münasibətdə olduğu "Yeni Müsavat" qəzetində barəsində çap olunan materiallara reaksiyalar verir. Azər Ayxan bildirdi ki, Cəmil Həsənli qəzetimizə qarşı qərəzlidir. Lakin onun bu reaksiyası qərəzdən yox, narahatçılıqdan irəli gəlir. "Bizim onun haqqında yazdıqlarımızın hamısı faktdır. Məsələn, Fərhad Əliyevlə əlaqələri, birliyi, korrupsiya pullarından faydalanması və bu pulları siyasətə gətirməsi ilə bağlı planları gerçəkdir. Eyni zamanda radikal müxalifət adlanmasına baxmayaraq, Azərbaycan Xalq Cəbhəsi və Milli Şura Müsavat Partiyasından fərqli olaraq, Avropa Yay Oyunlarını boykota çağırmadı. Biz də bunun səbəbini bilirik. Bilirik ki, Cəmi Həsənli üzdə nə qədər radikal müxalifətçiyəm desə də, hakimiyyətdəki effektli və ciddi, eyni zamanda iqtidara tam yiyələnmək iddiasında olan bir qrupla dərin, gizli əlaqədədir. Bu qrupun və əlaqənin təsiri nəticəsində Əli Kərimliyə də, Cəmil Həsənliyə də imkan vermədi ki, bu insanlar istədiklərini etsinlər. Yəni Avropa Yay Oyunlarını Müsavat Partiyası kimi boykota çağırsınlar. Əlbəttə ki, biz oyunların boykot olunmasını istəmirik, hətta buna qarşıyıq və hesab edirik ki, Milli Şura doğru edərək bu addıma getməyib. Bu, Azərbaycanın əleyhinə olan addım olardı. Lakin onlar vətən təəssübünü çəkdikləri üçün yox, konkret olaraq həmin qrupun təsiri və nəzarəti altında separatçılıq məzmunda bu hərəkəti həyata keçiriblər".

**A.Ayxan bildirdi ki, "Yeni Müsavat" qəzetinin Cəmil Həsənlinin üzərində böyük haqqı-sayı var:** "Bu, təkcə prezident seçkisi dövründə ona təmənnasız verdiyimiz mətbu dəstəklə bağlı deyil. Ümumiyyətlə, Cəmil Həsənli hansı kampaniyanın başında, önündə olubsa, onun xahişi ilə o prosesə dəstək vermişik. Cəmil müəllim Fərhad Əliyevin hüquqlarını müdafiə edən zamanlarda hakimiyyət keçmiş naziri Elmar Hüseynovun qatili kimi təqdim etməyə çalışdı. Cəmil Həsənlinin xahişi ilə Fərhad Əliyevi müdafiə etdik. Buna əsla borclu deyildik. Etməyə də bilərdik.



Daha sonra Cəmil Həsənli 2005-ci ildə Əli Kərimlini satıb parlamentə gedəndə də biz Azərbaycan Xalq Cəbhəsinin bəzi funksionerlərinin gizli xahişlərinə rəğmən, onu vurmadıq. Düşündük ki, o, hakimiyyətin tərəfinə keçməyi, Prezident Aparatının öncədən hazırladığı siyahı üzrə deputat olmağı qəbul edibsə, onun əleyhinə nəsə yazmağımızın nə faydası var? Adam bilərəkdən, şüurlu şəkildə, açıq-aydın formada cəbhəsini, silahdaşlarını, sədrini sataraq hakimiyyət tərəfə keçib. Yeri gəlmişkən, Cəmil Həsənli 2002-ci ildə də eyni davranışı sərgiləyib. Həmin ilin aprel ayında Milli Məclisin iclasında Əhəd Abıyev Əli Kərimlini ağır formada təhqir etdi. Bundan sonra AXCP-dən olan deputatlar iclasları boykot etdilər. Əsas şərt də bu idi ki, Ə.Abıyev üzr istəməsə geri qayıtmayacaqlar. Bütün cəbhəçi deputatlar bu qərara tabe oldular - Cəmil müəllimdən başqa. Növbəti iclasda o, Milli Məclisin iclas zalında göründü".

**A.Ayxan bildirdi ki, "Yeni Müsavat" qəzeti və musavat.com saytı 2013-cü ilin prezident seçkiləri dövründə Cəmil Həsənliyə heç özünün gözləmədiyi səviyyədə dəstək verib:** "O, özü də dəfələrlə bununla bağlı bizə təşəkkürünü bildirib. Hakimiyyətin kontrolunda olsaydıq, təbii ki, bunu etməzdik. Əgər iqtidara bağlı media orqanı olsaydıq bizi deyərdilər ki, Cəmil Həsənlini vurun. Bizsə axıra qədər onu dəstəklədik. Məhz sonuncu prezident seçkisi kampaniyasında tutduğumuz mövqeyə görə seçkidən sonra qəzet olaraq başımıza gəlməyən qalmadı: seçki yekunlaşar-yekunlaşmaz metro keçidlərindəki köşklərdə "Yeni Müsavat"ın satışına qadağa qoyuldu, ən müxtəlif bəhanələrlə qəzet məhkəmələrə verildi, 3 milyon yarım isklə və üst-üstə 71500 min manat cərimə ilə üz-üzə qaldıq. Hələ də o cərimələri ödəyərik. Görəsən, Cəmil Həsənlinin bunlardan xəbəri varmı ki, biz ona dəstək verdiyimiz üçün hələ də cərimə ödəyirik? Bu adamlar özlərini o dərəcədə pinti aparırlar ki, adam haqqını onlara halal etməyə tərəddüd edir. Mətbuata, tənqidçi və təftişçi jurnalistikaya dözümsüzlük müxalifət liderlərinin ən zəif yeridir. Müxalifətin önündə gedən əksər siyasətçilər tənqidə iqtidardakı həmkarlarından daha dözümsüzdülər. İndi Cəmil Həsənlinin, Əli Kərimlinin və digərlərinin davranışına, bizimlə rəftarına baxıb düşünürəm ki, niyə bunlara görə hakimiyyətlə düşmənçilik aparmışıq? Dəyərdimi? Bunlar iqtidar olsalar Azərbaycanda yaxşılığa nə dəyişəcək? Biz qəzetçilərin durumunda müsbətə doğru nə fərq yaranacaq? Bunlara yaxşılıq edirsən, dəstək verirsən, çətin vaxtlarında hakimiyyətlə pis olub təbliğatlarını aparırsan, yanlarında olursan, "sağ ol" əvəzinə ən ağır sözlər eşidirsən. Üzərimizə böhtan yağdırırlar, şərləyirlər".

❑ **RÖYA**

# Nazir oğlunun rüşvətlə fəxri konsul olması iddiasına reaksiya gəldi

**Nəqliyyat naziri Ziya Məmmədovun oğlu, iş adamı Anar Məmmədovun adı ətrafında daha bir qalmaqallı söhbətlərin yayılmasına Makedoniyakı Türk Hərəkat Partiyasının üzvü, millət vəkili Enes İbrahimin yaydığı açıqlama səbəb oldu.**

Musavat.com-un türk deputata istinadən yaydığı sensasion məlumata görə, "iş adamı Anar Məmmədov külli miqdarda rüşvət verib Makedoniyadan fəxri konsulluq alıb". Enes İbrahim bildirib ki, Makedoniyada qardaş Azərbaycanın adının çirkli pullarda hallanması onları çox narahat edir.

Azərbaycanın ən böyük şirkətlər qrupundan biri olan "Garant Holding"in təsisçisi, Azərbaycan Qolf Federasiyasının təsisçisi və prezidenti, Azərbaycan-Amerika Alyansının təsisçisi və rəhbəri kimi titullar daşıyan Anar Məmmədov Makedoniya Respublikasının Azərbaycandakı fəxri konsulu postuna bu ölkənin xarici işlər naziri Nikola Poposkinin Azərbaycanın XİN rəhbəri Elmar Məmmədyarova göndərdiyi məktubla təyin edilib. İndi iddia budur ki, cənab Məmmədov bu adı rüşvətlə alıb. Bildirildiyinə görə, hazırda onun Makedoniyada geniş biznesi də var. İddia ilə bağlı hələ ki nə Anar Məmmədov, nə də vəkili mətbuata açıqlama verməyib.

Qeyd edək ki, bir müddət əvvəl iş adamı Hafiz Məmmədovun oğlu Kənan Məmmədov Xorvatiyanın Azərbaycandakı xoşməramlı səfiri seçilib. Bildirilirdi ki, Xorvatiya hökuməti 23 yaşlı bu şəxs barədə məlumat topladıqdan sonra onun namizədliyi üzərində dayanıb və istəyini Azərbaycan tərəfə bildirib.

*İş adamlarının fəxri konsul rütbəsi almağa meylli olmasının səbəbləri maraqlıdır. Bu ad xüsusi şəkildə toxunulmazlıq statusumu verir, yoxsa ayrı səbəblər var? Konkret halda nəqliyyat naziri Ziya Məmmədovun oğlunun Makedoniyanın fəxri konsulu olması onunçün hansı mənanı kəsb edir?*

**Deputat Fazil Mustafa** deyir ki, bu, həmin ölkənin seçimidir: "Ölkələrin səlahiyyətli orqanları belə bir fəxri adlar verə bilir. Necə ki, bizim universitetlərdə də fəxri professor və başqa titullar verirlər. Bunlar heç bir xüsusi hüquq yaratmır. Amma ölkənin təbliği baxımından, ölkənin tanıtdırılmasında xidmət göstərmək üçün əslində verilən mənəvi bir imtiyazdır, bundan başqa bir şey ifadə etmir. Yəni bunu istənilən adama istənilən ölkə üçün verə bilərlər. Hətta Azərbaycan da belə bir ad verə bilər - əgər Azərbaycan qarşısında xidmətləri varsa, xaricdə Azərbaycanı təmsil edirlərsə. İndi mən bilmirəm Makedoniyanın təbliği ilə bağlı hansı addımlar nəzərdə tutulub, yaxud onların niyyəti nədir. Amma hər halda burda hüquqazidd bir şey yoxdur, istənilən şəxsə bu titulu verə bilərlər".



**Elxan Şahinoğlu:**
"İndi Məmmədov konsul olaraq Makedoniyada biznesini artırmaq üçün statusunu artırmış oldu"



**Ruslan Məmmədov:**
"O adamın dedikləri hamısı boş şeylərdir"

**F.Mustafa qeyd etdi ki, fəxri konsulluq həmin şəxsin toxunulmazlıq hüququ əldə etdiyi anlamını da vermir:** "Bu, mənəvi xarakter daşıyan məsələdir, hüquqi sənəd kimi elə bir rolu yoxdur". Deputat fəxri konsulun həmin ölkə qarşısında hansısa öhdəçilik götürmədiyini də qeyd etdi: "Əgər bu, hansısa problem yaradarsa, bu addan məhrum edilə bilər".

**Ancaq F.Mustafa rüşvət ittihamını ciddi qəbul etmir:** "İnanmıram ki, bu məsələ rüşvətlə həll olunsun. Çünki əslində həmin ölkənin özü maraqlıdır ki, onun müəyyən dərəcədə təbliğində geniş iştirak edə biləcək imkanlı adamlara imtiyaz versin. İmkanlı şəxslərə, bizneslə məşğul olan adamlara da bu titulu verə bilərlər ki, onun təbliğində hansısa işləri görə bilsin".

**Politoloq Elxan Şahinoğlu** bildirdi ki, dünya praktikasında fəxri konsulların iş adamlarına tapşırılması praktikası var: "Hər hansı ölkənin bir başqa ölkədə xüsusi konsulluq saxlamağa ehtiyacı olmadığda həmin ölkədə tanınmış bir iş adamını tapır, bu səlahiyyəti ona tapşırır. Bu, həmin ölkə üçün də xeyirlidir ki, konsulluq açmaqla və ora diplomat göndərməklə əlavə pul xərcləmir, iş adamına da xeyirlidir ki, statusunu artırır, digər tərəfdən çalışdığı ölkədə biznes maraqlarını həyata keçirir. Məsələn, 2000-ci ildə Beyrutda olanda Azərbaycanın bu ölkədəki konsulu ilə tanış oldum. Həmin şəxs Livanın iş adamı idi, o həm biznesi ilə məşğul olur, həm də ölkəsində Azərbaycanın maraqlarını təmsil edirdi. Düşünürəm ki, Makedoniya da məhz eyni arqumentdən çıxış edərək Anar Məmmədovu konsul təyin edib".

**E.Şahinoğlunun fikrincə, Makedoniya "bir güllə ilə iki dovşan" vurub:** "Bilirlər ki, Anar Məmmədovun atası məşhur oliqarx-nazirdir, sözü keçən adamdır, Azərbaycanda böyük kapitalı və layihələri var. Ona görə belə şəxs Makedoniyanın Azərbaycandakı maraqlarının təmsilində də uğurlar əldə edəcək. O biri tərəfdən gələn xəbərlərə görə, Məmmədovlar ailəsinin Makedoniyada biznes maraqları var. İndi Məmmədov konsul olaraq Makedoniyada biznesini artırmaq üçün statusunu artırmış oldu. Bir sözlə, belə bir prinsip işləyəcək: "Mən sənə, sən də mənə". Ancaq həm Makedoniyanın, həm də Anar Məmmədovun nəzərə almadıqları ciddi amillər var. Birincisi, Anar Məmmədovu konsul təyin edən Makedoniya hökuməti nəzərə almalıdır ki, Azərbaycanda mənbəyi bilinməyən pullarla varlanan oliqarxları sevmirlər və onları istənilən an sorğu-suala cəlb edə bilərlər. Konsul təyin olunan oliqarx isə bilməlidir ki, Makedoniyada vəziyyət sabit deyil, müxalifət hökuməti yıxmaq üçün bütün gücünü səfərbər edib və bu işdə müxalifətə rəsmi Vaşinqton da dəstək verir. Yeni hakimiyyət isə keçmiş hakimiyyətin bütün, o cümlədən konsul təyinatlarını təftiş edə bilər".

**A.Məmmədovun vəkili Ruslan Məmmədov isə "Yeni Müsavat"a açıqlamasında qısaca bunları bildirdi:** "Mən xaricdəyəm, geniş şərh verə bilmirəm. Amma bunlar 100 faiz yalandır. O adamın dedikləri hamısı boş şeylərdir".

❑ **Cavid TURAN**

**Azərbaycanda insan haqlarının və demokratiyanın durumu Avropa Şurasının yay sessiyasının gündəliyinə salınıb. "Yeni Müsavat" xəbəri Avropa Şurasındakı qaynaqlardan alıb. Xəbərdə bildirilir ki, qərar ötən həftə Avropa Şurası Parlament Assambleyasının Parisdə keçirilən yığıncağında qəbul edilib. Avropa Şurası Parlament Assambleyasının hər sessiyasından öncə Fransa paytaxtında sessiyanın plenar toplantısının gündəliyinə salınacaq məsələlərin müəyyən edilməsi üçün toplantı keçirilir.**



# ABŞ və Qərbin Azərbaycan hakimiyyətinə "yay sürprizləri"

## ABŞ Konqresi, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası siyasi məhbus məsələsini çözməyən rəsmi Bakını müzakirəyə çıxarır

**Azərbaycanla bağlı məsələnin gündəliyə salınmasını AŞPA-nın İnsan Haqları Komitəsi tövsiyə edib.** Komitə təmsilçiləri bildirib ki, Azərbaycan Avropa Şurası qarşısında üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir, insan haqları ilə bağlı problemlərin aradan qaldırılması üzrə verdiyi vədlərə əməl etmir, görülən tədbirlər isə formal xarakter daşıyır və demokratik durumun yaxşılaşmasında müsbət tendensiya yaratmır. Paris müzakirələrində siyasi məhbuslar üzrə Azərbaycanda yeni yaradılan üçtərəfli işçi qrupun fəaliyyəti də müzakirə edilib. AŞPA təmsilçiləri bildirib ki, qurumdaxili müzakirələrdə rəsmi Bakını təmsil edən şəxslər insan haqları müdafiəçilərinin, eləcə də Avropa Şurası təmsilçilərinin qaldırdıqları məsələlərə diqqət ayrılacağına söz versələr də nəticələr gözlənilən olmayıb, siyasi məhbus elan edilən şəxslər azadlığa çıxması prosesi yubanıb.

Azərbaycanın sərt tənqid olunduğu toplantıda Azərbaycanı Milli Məclisin AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov təmsil edib. Toplantıya qatılan qaynağın sözlərinə görə, Səməd Seyidov kəskin suallarla "küncə sıxışdırılıb". AŞPA təmsilçiləri Azərbaycan hakimiyyətinin siyasi məhbuslarla bağlı problemi hansı səbəbdən çözmədiyi, vətəndaş cəmiyyəti fəallarının təqibini dayandırmadığı haqqında çoxsaylı suallar versələr də Səməd Seyidovdan arqumentli cavab ala bilməyiblər.

**Azərbaycanla bağlı Avropa Şurası Parlament Assambleyasının yay sessiyasında səslənəcək hesabat da artıq hazırdır.** Hesabatı qurumun Azərbaycan üzrə həmməruzəçiləri Pedro Aqramund və Tadeus İvinski hazırlayıb. Sənəddə Azərbaycanda insan haqlarının durumu və vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinə yaradılan məhdudiyyətlər ayrı-ayrı bölmələrdə toplanıb. Hesabatda bildirilir ki, Azərbaycan hökuməti dəfələrlə yüksək beynəlxalq kürsülərdən ölkədə insan haqları və demokratiya ilə bağlı problemlərin olmadığını bildirsə də, reallıq tamamilə fərqlidir. Sənəddə siyasi fəaliyyətinə görə həbs edilən bir çox şəxsin adı çəkilir və onların hər birinin taleyi ilə bağlı Azərbaycan hökumətinə dəfələrlə müraciət edildiyi, buna baxmayaraq həmin şəxslər üzərindən saxta məhkəmə iddiaları və həbs qərarları götürülmədiyi vurğulanır.

**Sənəddə vətəndaş cəmiyyəti institutları ilə bağlı problem insan haqları məsələsi ilə uzlaşdırılıb.** Həmməruzəçilər qeyd edir ki, Azərbaycanda siyasi məhbus statusu alan şəxslərin bir çoxu uzun illərdir vətəndaş cəmiyyətinin inkişafı üçün böyük əmək sərf edən şəxslərdir. Sənəddə Avropa Şurası və digər beynəlxalq qurumlarla əməkdaşlıq edən şəxslərin saxta iddialarla uzun müddətə azadlıqdan məhrum edilməsi demokratik prosesə ağır zərbə, Azərbaycanın sivil dünyanın bir parçası olmaqdan imtina etməsi kimi dəyərləndirilir.

Hesabatda Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ayrıca bölüm var. Həmsədrlər Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü pozmasını, torpaqlarını işğal etməsini, bu səbəbdən 1 milyon insanın daimi yaşayış yerindən məhrum olmasını, sivil şəxslərin əsir götürülməsini ölkədə insan haqları ilə bağlı prosesə ciddi ziyan vurduğunu xüsusi qeyd edib.

Hesabatda İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun qanunsuz həbsinə xüsusi vurğu var. Həmsədrlər onun həbsini beynəlxalq insan haqları institutları ilə əməkdaşlıq etməsinin qarşılığı kimi qiymətləndirir.

**"Sülh və Demokratiya" İnstitutunun sədri Leyla Yunusun adı isə sənəddə bir dəfə çəkilir.** Müşahidəçilər bunu Leyla Yunusla Pedro Aqramund arasında bir neçə il öncədən başlayan soyuq münasibətlərə bağlayır. Məsələ burasındadır ki, Leyla Yunus Pedro Aqramund və o zamankı digər həmsədr Josef Debano Qrexi Azərbaycanla bağlı 2012-ci il hesabatında son dərəcə yumşaq mövqe tutduqlarına görə kəskin tənqid etmişdi. Leyla Yunus həmməruzəçiləri Azərbaycan hakimiyyəti ilə əlbir olaraq ölkədəki ciddi problemlərə göz yummaqda ittiham etmişdi. Həmin "yumşaq" hesabat sonucu Avropa Şurası Azərbaycanda siyasi məhbuslar üzrə məruzəçisi postu ləğv edilmişdi. Bu durum Azərbaycanda insan haqlarının durumuna mənfi təsir edən faktor kimi qiymətləndirilir. Aradan keçən 2 il bu qənaətin yersiz olmadığını göstərdi və durumun pisləşməsini nəzərə alan Avropa Şurası rəhbərliyi ötənilki yay sessiyasında Pedro Aqramunta həm də siyasi məhbuslarla bağlı hesabat hazırlamaq yetkisi verdi.

**Azərbaycan məsələsi yay sessiyasının iyunun 22-də keçiriləcək ilk yığıncağında müzakirə ediləcək.** Müzakirələrə müşahidəçi qismində Azərbaycandan olan bir çox siyasi mühacirlər də qatılacaq. Ölkədə siyasi baxışlarına görə həbs edildikləri, təqiblərlə üzləşdikləri üçün Avropa ölkələrinə sığınan şəxslər AŞPA-nın İnsan Haqları Komitəsində keçiriləcək müzakirələrdə çıxış edəcəklər. Komitənin yığıncağında Azərbaycana beynəlxalq institutlar vasitəsilə basqı göstərilməsinin yolları aranacaq, gələnən nəticələr AŞPA-nın plenar sessiyasının gündəliyinə tövsiyyə ediləcək.

Siyasi mühacirlərin Avropa Şurasının və Avropa Şurası Parlament Assambleyasının rəhbərliyi ilə görüşləri də nəzərdə tutulub.

Həmsədrlərin hazırladığı hesabatın plenar iclasda müzakirəsi zamanı Azərbaycanın ciddi sürprizlərlə üzləşəcəyi ehtimalı yüksəkdir. Hər sessiyada Azərbaycan hakimiyyətini demokratiyaya basqılara görə tənqid edən AŞPA deputatlarının ölkənin qurumdan çıxarılması təşəbbüsü ilə çıxış edəcəyi gözlənilir.

İyunun 10-da isə Avropa Parlamenti və Amerika Birləşmiş Ştatlarının Konqresində Azərbaycanda insan haqlarının durumu ilə bağlı dinləmələr keçirilib. Avropa Parlamentindəki qaynaqlardan əldə etdiyimiz informasiyaya görə, Avropa parlamentarları Azərbaycanın mövqeyini kəskin pisləyib, üzərinə götürdüyü öhdəliklər yerinə yetirilməsə Azərbaycanın Avropa institutlarında təmsilçiliyi məsələsinə yenidən baxılması haqqında fikirlər səsləndiriblər. Hər iki qurumda eynizamanlı tədbirləri Qərbin və ABŞ-ın Azərbaycan iqtidarına durumdan çox ciddi rahatsızlıq mesajı kimi dəyərləndirilir.

**Rəsmi Bakını sərt tənqidlərdən yalnız sessiya keçiriləne qədər siyasi məhbusları azad edilməsi xilas edə bilər. Bir neçə gün öncə prezident yanında Əfv Komissiyasının təmsilçiləri və insan haqları müdafiəçiləri Heydər Əliyevin hakimiyyətə qayıdışı günü olan 15 iyunda bir neçə siyasi məhbusun azad ediləbiləcəyi haqqında fikir səsləndirib. İnsan haqları müdafiəçiləri siyasi məhbus siyahılarını quruma təqdim edib. Sıra hakimiyyətdədir.**

❑ **Aygün Muradxanlı, musavat.com**

# Abbas Abbasov qapı arxasında qaldı

## Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu sabiq vitse-primyerə Avropa Oyunlarına bir bilet belə ala bilməyib...

**Avropa Oyunlarının açılışında iştirak etmək üçün Azərbaycana gəlməyi çox arzulayan baş nazirin sabiq birinci müavini Abbas Abbasov rədd cavabı alıb. "Azərbaycanda keçiriləcək Avropa Oyunlarında iştirak etmək üçün məni Bakıya heç kəs dəvət etmədi. Dəvətsiz yerə isə getmək olmaz". Azerros.ru saytına açıqlama verən Abbas Abbasov niyə dəvət edilməməsinin səbəbini bildiyindən bu barədə ətraflı danışmayıb. O, Avropa Oyunlarına görə Azərbaycana edilən qarayaxma kampaniyasını pisləməklə kifayətlənib.**



Abbas Abbasov

"Yeni Müsavat" hələ bir neçə ay əvvəl öz mənbəsinə istinadən Avropa Oyunlarına gəlmək istəyən A.Abbasova "yox" cavabı verildiyini yazmışdı. Məlumdur ki, A.Abbasov Dünya Güləş Federasiyasında "Güləşin dostları" təşkilatının rəhbəridir. O, məhz bu yarışlara gəlməyi hakimiyyətlə barışıq üçün son şans hesab edirdi. A.Abbasova hələ bir neçə ay öncədən deyilmişdi ki, onun adı ümumiyyətlə açılış mərasimində iştirak edəcək ali qonaqların siyahısına daxil edilməyib.

Qeyd edək ki, baş nazirin sabiq birinci müavininin oğlu da bir müddət əvvəl atasının məhz Bakıya Avropa Oyunlarında gələcəyinə ümidli olduğunu demişdi. A.Abbasovun özü isə hələ çox əvvəl "bir də tabutda" Bakıya qayıdacağını söyləyərək "ona da əgər icazə versələr" əlavəsini etmişdi.

A.Abbasovun Bakıya bu dəfə də buraxılmaması onunla bağlı hakimiyyətin qəti qərar verdiyi hesab oluna bilər. Belə görünür ki, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu belə sabiq vitse-primyerə bir bilet belə ala bilməyib. Qeyd edək ki, "AzerRos"un yeni rəhbəri Söyün Sadıqov Rusiyadakı səfirimizi mütəmadi olaraq Abbas Abbasovla birgə hərəkət etməkdə ittiham edir. P.Bülbüloğlu isə bu ittihamlara cavab vermir...

❑ **Xəbər xidməti**

YENİ MÜSAVAT
N 126 (6154) 11 iyun 2015

## Qalmaqallı səfir özünü "Qərbin adamı" elan etdi




# Məmmədyarov çıxılmaz durumda-səfirlər geri çağırılır

### Arif Məmmədovun rus kəşfiyyatına yaxınlığı iddiası ortalığı daha da qarışdırdı; xarici işlər naziri Elmar Məmmədyarovun istefası gündəmdədir; Avropa ölkələrindəki səfirlərin çoxu vaxtından əvvəl geri çağırıla bilər

**İslam Konfransı Təşkilatının Avropa İttifaqı yanındakı nümayəndə heyətinin rəhbəri Arif Məmmədovun facebook statusu ətrafında yaranmış qalmaqal hər ötən gün daha da böyüyür. Məlum olub ki, hakimiyyətin ciddi qınağına tuş gələn xarici işlər naziri Elmar Məmmədyarov Xarici İşlər Nazirliyində bir neçə diplomatı işdən çıxarıb. Onlar yanmış bina ilə bağlı 20 mayda məmurları tənqid edən statusu bəyənən diplomatlardır. Səfirin statusunu bəyənən ("like" edən) istifadəçilər arasında diplomatik xidmətin beş əməkdaşı olub: Fərəh Gözəlova, Anar Mədətli, Cavid Musayev, Ramiz Vəliyev və XİN mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev. "Turan" XİN-dən rəsmi təsdiq və ya hər hansı şərh ala bilməyib. Bir həftədən çoxdur ki, Hikmət Hacıyev telefonlara cavab vermir. Xatırladaq ki, o, iyunun 7-də bəyanatla çıxış edərək A.Məmmədovun fikirlərini pisləmişdi. Bir gün sonra isə Cavid Musayev də "müxalifətçi diplomat"ı pisləyən açıqlama yaymışdı.**

***

A.Məmmədov isə nəinki geri çəkilir, əksinə iqtidarın üzərinə daha ürəklə gedir. O, diplomatların işdən çıxarılmasına təəssüf etdiyinin bildirib: "Təəssüf edirəm ki, insanlar xalqıma verdiyim başsağlığı ilə razılaşdığına və "layk" etdiyinə görə hesab ödəməli olur" deyə, o bildirib. Məlum olub ki, onun geri çağırılmasın Azərbaycan XİN-in səlahiyyətində deyil, belə ki onun İƏT ilə 4 illik müqaviləsi var.

Mediaya verdiyi müsahibədə o, hakimiyyət dəyişikliyinin tərəfdarı kimi deyil, islahat tərəfdarı kimi çıxış etdiyini söyləyib: "Hakimiyyət xalqın ondan gözlədiyi islahatları həyata keçirə bilsə... Biz də xalqın, küçədəkilərin, hətta elitanın əhvalını yaxşı bilirik. Elitada elə adamlar var ki, baş verənlərin səhv olduğunu görür. Onları şəxsən tanıyıram, elitanın bir çox üzvləri ilə ünsiyyətdəyəm. Əgər məni tanıdıqlarına görə də adamları işdən çıxarsalar, onda gərək bütün siyasi elitanı qovsunlar.

Adamlar başa düşür ki, nəsə etmək lazımdır. Düşünürəm ki, cəmiyyətdə islahat aparmaq və bundan qorxmamaq lazımdır. Əgər prezidentin buna gücü və qətiyyəti çatsa, xalq onu dəstəkləyəcək".

Diplomat müsahibəsində onun düşünülmüş olaraq "müxalifət lideri" kimi önə çıxarılması barədə iddialara da münasibət bildirib: "Müxalifətin bir hissəsi, yaxud onun lideri olmaq, hər hansı siyasi partiya yaratmaq fikrim yoxdur. Partiyalar saya fikir verir. Onlara tərəfdarlarının sayı vacibdir. Mən isə keyfiyyətin vacib olduğunu hesab edirəm. 10-20 nəfərlik komanda 5 partiyadan yaxşı işləyə bilər. Əgər düşünən insanları bir yerə toplaya bilsən, qarşında heç bir maneə olmayacaq".

Diplomatla bağlı daha bir sensasion iddianı milli təhlükəsizlik nazirinin sabiq birinci müavini, Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər səsləndirib. Onun fikrincə, Qərblə Rusiya arasında MDB, xüsusən də GUAM məkanında geopolitik savaş gedir: "Bu savaş Ukrayna, Gürcüstan və Moldovada açıq formada getsə də, Azərbaycanda bu proses gizli gedir. Bu geosiyasi savaş getdikcə, hərbi-siyasi vəziyyətin kəskinləşməsi fonunda xüsusi xidmət orqanları aktivliyini daha da artırıblar. Azərbaycan uğrunda gizli savaş şiddətlənib. Xüsusi xidmət orqanlarının aktivliyi göz önündədir. Ona görə də, Azərbaycanla Qərb arasında ayrı-ayrı ölkələr, beynəlxalq təşkilatlar arasında münasibətlər kəskinləşib. Yaxın zamanlarda bu gizli savaşın qızışacağını proqnozlaşdırmaq o qədər də çətin deyil."

S.Əkbər deyib ki, Arif Məmmədovun keçmişi o qədər etibarlı deyil: "Onu daha çox hipotetik olaraq rus kəşfiyyatının Qərb kəşfiyyatı ilə başlatdığı oyun hesab edirəm. Onların, A. Məmmədovun Qərbin axtardığı adamlardan biri olduğunu göstərmək mesaji verdiyini düşünürəm. Yeni bunun Rusiyaya xüsusi xidmət orqanlarının ABŞ, Qərb xüsusi xidmət orqanlarına qarşı başlatdığı bir oyun olduğunu düşünürəm. Bununla A. Məmmədovu Azərbaycan hakimiyyətinə müxalif ola biləcək perspektivli bir lider kimi göstərmək istəyirlər. Mən ilkin olaraq bu variantı araşdırmağın tərəfdarıyam."

Xatırladaq ki, bəzi saytlar A.Məmmədovun Moskvada Baş Kəşfiyyat İdarəsinin məktəbini bitirdiyinin yazsa da, diplomat bunu təkzib edir. O, Moskvada Hərbi Tərcüməçilər İnstitutunda oxuduğunu deyib.

İyunun 10-da diplomat öz facebook səhifəsində yeni müraciət yayıb. "Sevimli xalqım" sözləri ilə başlayan müraciətində A.Məmmədov yalnız ona irəli sürülən rus kəşfiyyatı ittihamına toxunub.

"Qərbdə kifayət qədər geniş tanınmağımı və imkanlarımın olduğunu bilərək (Qərb 20 ildə mənim kim olduğumu kifayət qədər dərindən öyrənib) primitiv şəkildə Qərbə mənim Rusiyanın dairələrinə yaxın olduğumu çatdırmaq istəyirlər. Bu, Avropada gülüşlə qəbul olunur. Ölkə daxilində kimsə buna inanırsa belə, Qərb mənim heç bir xarici qüvvəyə bağlı olmadığımı çox gözəl bilir" deyə, diplomat bildirib.

***

Məlumatlara görə, nazir E.Məmmədyarov da hazırda çıxılmaz durumdadır, hətta Avropa Oyunlarından sonra istefası gündəmdədir. "Yeni Müsavat"ın iqtidara yaxın qaynağı deyib ki, Məmmədyarovun son Qarabağ danışıqlarında da "işğalçı Ermənistan" terminini işlətməməsi iqtidar kuluarlarında ciddi narazılıq yaradıb. Bu barədə XİN rəhbərinə bir neçə dəfə irad bildirilib də. Ümumiyyətlə onun davranışlarında heç zaman vətənpərvərlik elementləri görünməyib. Sanki ümumiyyətlə, ölkənin xarici işlər naziri bir başqasıdır...

**Daha bir ilginc məlumata görə isə prezidenti İlham Əliyev Azərbaycanın Avropa ölkələrində təmsil edən səfirlərin çoxunu vaxtından əvvəl geri çağıracaq. Buna səbəb onların etimadı doğrulda bilməməsi və Azərbaycandan daha çox Qərbin maraqlarını müdafiə etmələridir ( istiqlal.az). İddiaya görə, Arif Məmmədovla bağlı qalmaqdan sonra hakimiyyət diplomatik korpusun fəaliyyətinə və tərkibinə yenidən baxmağı qərara alıb. Adı "qara siyahı"da olan Avropadakı səfirlər sırasında Avropa İttifaqındakı səfir Fuad İsgəndərov, Azərbaycanı NATO-da təmsil edən Xəzər İbrahim, Azərbaycanın Fransadakı səfiri Elçin Əmirbəyov, Azərbaycanın Almaniyadakı səfiri Pərviz Şahbazov və başqalarının adı çəkilir.**

❑ **"Yeni Müsavat"**

## Gün gələr, biz də seçərik...



**Xalid KAZIMLI**

**Hər dəfə hansısa ölkədə demokratik, dürüst, qanuni, şəffaf seçkilər keçirilləndə və bu cür seçkilərin nəticəsinə uyğun olaraq hakimiyyət dəyişikliyi olanda ölkəmizin siyasi fəal kəsimi ikili durumda qalır: həm sevinir, həm də kədərlənir.**

Azərbaycan seçicisi ona görə sevinir ki, dünyada demokratik seçki keçirən, dinc yolla hakimiyyət dəyişikliyinə nail olan ölkələrin mövcudluğunu faktoloji olaraq görür və anlayır ki, "dünyanı masonların idarə etməsi", "siyasət mafiyasının bütün ölkələri cənginə alması" kimi nəzəriyyələr puçdur. Odioz siyasilər və oliqarxlar heç də həmişə öz hakimiyyətlərini qoruya bilmirlər, bir gün onu müxaliflərə verməli olurlar.

Dünyada, xüsusilə də Avropada keçirilən demokratik seçkilərdən sonra ölkəmizin siyasi fəal kəsiminin qanı ona görə qaralır ki, dürüst seçki keçirmək ənənəsindən, dinc yolla hakimiyyət dəyişikliyi mexanizmindən nə qədər uzaq olduğumuzu anlayır, "onlar harda, biz hardayıq" düşüncəsinə qapılır və Avropa standartlarına uyğun seçki keçirmək üçün lazım olan illərin çoxluğu qarşısında dəhşətə gəlir.

Bir aralara belə deyildi. Hər dəfə saxtakarlıq və zorakılıqla keçirilən seçkidən sonra bir sonrakı seçkiyə ümid qalırdı. Avropanın aparıcı siyasi üst qurum təşkilatları da seçkilərin dünya və Avropa standartlarına uyğun olmadığını qeyd etsələr də, hər seçkini "irəliyə doğru addım" kimi qiymətləndirirdilər.

**Uzun illərdən sonra, təxminən 2003-cü ildə məlum oldu ki, biz demokratiya müstəvisində irəliyə doğru 5-6 addım atmışıq. Ancaq 2003-cu ildən sonra geriyə atdığımız addımlar daha çox oldu və 2010-cu ildən sonra ölkəmiz daha iri addımlarla irəliləyib müxalifətsiz parlamentə malik olan, dərnək səviyyəsində müxalifət qüvvələri mövcud olduğu ölkələrin sırasında yer aldı.**

Bir neçə gün öncə Türkiyədə keçirilmiş parlament seçkiləri bu məsələni yenidən aktuallaşdırıb. 17 iyun seçkiləri qardaş ölkənin iç siyasəti ilə bağlı bəzi problemləri kəskinləşdirsə də, ən azı demokratiyanın sürəkliliyi, azad və dürüst seçki mexanizminin işləkliyinə dair əndişələrə son qoydu.

Seçkidən əvvəl Türkiyə boyunca seçici səslərinin cüzi də olsa saxtalaşdırılması təşəbbüslərinin olmasına dair şübhələr vardı və bu, hakim partiyanın - AKP-nin hakimiyyəti əlində nəyin bahasına olursa-olsun saxlamaq ehtirasının şiddətindən doğurdu. Hesab olunurdu ki, hakimiyyətdən dördəlli yapışan, təkbaşına hökumət qurmaq üçün son dərəcə canfəşanlıq edən, bununla yetinməyib ölkə konstitusiyasını dəyişdirmək, parlament respublikasını arxivə verib, prezident respublikası bərqərar etmək istəyən AKP məqsədinə çatmaq üçün bütün yollara baş vuracaq.

**Ancaq elə olmadı. Ya müvafiq təşəbbüslər beşiyindəcə boğuldu, ya da AKP sadəcə inzibati resurslardan sui-istifadə ilə kifayətləndi, açıq dövləti cinayətə qol qoymadı. Beləliklə, Türkiyədə azad, dürüst seçki keçirmək ənənəsi pozulmadı.**

Əgər iyunun 7-də Türkiyədə keçirilən seçki son 22 ildə Azərbaycanda keçirilən seçkilərə bənzəsəydi, bu hakimiyyət dairələrində dərin məmnunluq yaradacaqdı və onların öz yollarının nə dərəcədə düz olduğunu üstüörtülü şəkildə olsa da, millətin başına qaxacaqdılar. Eyni zamanda Azərbaycan seçicisində dərin ruh düşkünlüyü əmələ gələcəkdi, belə bir rəy yaranacaqdı ki, "bir dövlət-iki millət" şüarı artıq yerini alıb, biz necəyiksə, Türkiyə də elədir, biz necə seçki keçiririksə, onlar da elə keçirir.

Yaxşı ki, Türkiyə bizə və digər türk dövlətlərinə dürüst seçki keçirmək məsələsində parlaq örnək olaraq qaldı.

Bu ilin payızında Azərbaycan da eyni imtahanı verəcək. Bizdə də seçkilərə çoxlu partiya qatılacaq. Yenə hakim partiya parlamentdəki yerlərin mütləq çoxluğunu əldə etsə, bu, o demək olacaq ki, biz bu dəfə də seçkini Avropa standartları ilə yox, Myanma, Svazilend, Zimbabve standartları ilə keçirmişik.

Hələlik bu məsələdə yaxşılığa doğru heç bir dəyişiklik yoxdur. Hər şey indiyəcən keçirilmiş seçkilərdə olduğu kimidir.

Əslində, ölkədə elə bir durum yetişib ki, seçkilərdə kimin qalib gəlməsinin o qədər də əhəmiyyəti yoxdur, təki dürüst seçki keçirilsin, kim qalib gəlir-gəlsin və bu xalq da bilsin ki, verdiyi səsin əhəmiyyəti var, seçib-seçilmək haqqı var.

**Yoxsa son seçkilərdə olduğu kimi, seçicilər yenə də heç bir çağırışsız-filansız, təbii boykot yolunu seçəcəklər, kütləvi şəkildə səsverməyə gəlməyəcəklər.**

YENİ MÜSAVAT
N 126 (6154) 11 iyun 2015



# Doğrudanmı biz də türkük?

**Hüseynbala SƏLİMOV**

**Türkiyədə seçki bitdi. Bundan sonra necə olacaq, hakim partiya özünün planlarını gerçəkləşdirə biləcəkmi, hökumət necə formalaşdırılacaq, hansı siyasi koalisayalar qurulacaq, təkrar seçkilərə gediləcəkmi-indi bu suallar seçki ekspertlərini düşündürən əsas məsələlərdir...**

Amma bir nüans var. Bu seçkiyə dörd-beş partiyanın maraqları prizmasından da baxmaq olar, cəmiyyətin prizmasından da...

Diqqətimizi ən çox nə çəkdi? Seçki bitəndən sonra jurnalistlər onun ilkin nəticələrini elə coşqu ilə şərh edirdilər ki, adam düşünürdü ki, bəlkə də dünyada seçkidən maraqlı şou yoxdur...

Arada kanalı bir neçə dəfə qəsdən dəyişdik. Bilmək istədik ki, görən, bizim telekanallar nə göstərir?.. Oxuyurdular!..

Kor-peçiman yenidən Türkiyə kanallarına qayıtdıq və sona qədər də onları izləməklə məşğul olduq. Təsəvvür edin, hər bir bölgədə seçkinin nəticələri analiz olunur, əvvəlki göstəricilərlə tutuşdurulurdu...

Adam buna baxanda həm sevinir, həm də kədərlənirdi. Ona görə sevinirdik ki, haradasa, daha bir ölkədə insanlar həqiqi seçkidə iştirak edə bilir və siyasətçilər də onların qərarını əsas götürürlər...

Ona görə kədərlənirdik ki, adam qeyri-ixtiyari düşünürdü ki, İlahi, görən, doğrudanmı, biz də müsəlmanıq və ya türkük?..

Azərbaycandakı seçkilərlə bağlı bir neçə dəfə yazmışdıq ki, onların nəticələrinə bir dəfə baxmaq yetər ki, bu seçkilərin saxta olduğuna əmin olasan - bəli, seçkilərin coğrafiyası yetərincə işıqlandırılmır, mandatların deməK olar ki, hamısını hakim partiya "qazanır", digər partiyaların payına isə tək bir mandat düşür, özü də hamının yox, yalnız hakimiyyətə yaxınlığı ilə seçilən partiyaların!.. Üstəlik, bu "siyasi konstruksiya" ildən-ilə və seçkidən-seçkiyə dəyişmir, necə var, elə də qalır...

Jurnalistlik fəaliyyəti dövründə adam çox şeylə rastlaşır. Bir neçə dəfə təhlilçi kimi hakim partiyanın deputatları ilə söhbətlərdə də iştirak etmişik. Hər belə söhbət zamanı düşünürdük ki, İlahi, mən kimi sorğu-suala tutmuşam, bəlkə də bu adam özü də əməlli-başlı bilmir ki, hansı dairədən seçilib, bilmir ki, həqiqi, əsl seçki və həqiqətən seçilmək necə olur!..

Ona görə də təəccüblənmirəm ki, indi apteklərə ürək dərmanlarına görə müraciət edənlərin sayı artıb-elə mövzular var ki, onlara hətta toxunmaq belə adamın ürəyini ağrıdır...

Burada əslində Türkiyədəki son seçkilərdən irəli gələn nəticələri araşdırmalı idik. Amma əvvəldə dedik ki, vəziyyət mürəkkəbdir...

Amma hələ bütün siyasi resurslar səfərbər olunmayıb, hətta ilkin nəticələr bir neçə koalisiya formuluna işarə edir... Əsas isə odur ki, Türkiyə demokratik dövlətdir və bu ölkədə həqiqətən də demokratik seçkilər keçirilir...

Hakim partiyanın müəyyən problemlərlə qarşılaşacağını seçki ərəfəsində biz də təxmin etmişdik...

Adətən demokratik ölkələrdə hakimiyyətdə olmağın seçki baxımından üstünlükləri onun çatışmazlıqlarından, "mənfi-lik"lərindən daha azdır, çünki Azərbaycan kimi ölkələrdə dəbdə olan "inzibati resurslar" ifadəsinə siz oralarda təsadüf etməzsiniz...

O səbəbdən ki, bütün partiyalara eyni şərait yaradılır və əgər bəlli olsa ki, hakim partiya adı çəkilən resurslardan yararlanıb, bu, seçkinin nəticələrinin ləğv edilməsi üçün əsas ola bilər...

Demirik ki, Türkiyə ideal dərəcədə demokratik ölkədir. Bəlkə də cinsi azlıqların, ümumiyyətlə, azlıqların hüquqlarına daha həssas olan Avropa ölkələrinin prizmasından baxanda bu ölkədə "problemlər" hələ çoxdur...

Ola bilsin, məhz bu amilləri nəzərdə tutan bəzi post-liberal ölkələr Türkiyə kimi dövlətlərdəki demokratiyanı sadəcə, "seçki demokratiyası" adlandırırlar. Amma diqqətlə baxanda görürsən ki, son vaxtlar hətta bu problemlərə də diqqət yetirilir-cinsi azlıqlar olmasa da (onların təmsilçiləri hətta həmin post-liberal ölkələr belə seçki siyahılarına başçılıq etmirlər!), dini və milli azlıqların təmsilçiləri diqqətdədirlər...

Amma bütün bunlar haradasa uzaqda - Türkiyədə baş verir. Bir daha Azərbaycana qayıdaraq düşünürük ki, ölkə 1993-cü ildən sonra halallıqdan uzaqlaşdı. Cəmi bircə dəfə ölkədə seçkiyə bənzər nəsə keçirildi, onun siyasətinə əsl seçki nəticəsi - 50 faizdən bir qədər artıq nəticə qədəm qoydu. Amma bu, cəmi bircə dəfə belə oldu, bir daha təkrarlanmadı...

**Bunları düşünə-düşünə yenə kanalı dəyişdik. Bizimkilər hələ də oxuyurdular...**



# Kremlin Bakıya qaz şantajı arxasında Saakaşvili amili

## Putinin Azərbaycana səfəri ərəfəsində Rusiya XİN-in "Transxəzər" kəməri ilə bağlı hədəsinin yeni pərdəarxası; Odessaya qubernator təyinatının siyasi əks-sədası Xəzərə çatır, bəs sonra?..

**Rusiya Xarici İşlər Nazirliyinin (XİN) "Transxəzər" qaz kəməri layihəsinə dair bəyanat haqda məlumat vermişdik. XİN rəsmisi Aleksandr Lukaşeviç açıq və hədələyici mətnlə bildirmişdi ki, "Transxəzər qaz kəmərinin tikintisi Rusiyanın razılığı olmadan baş tuta bilməz". Dərhal yada salaq: bu, həmin Lukaşeviçdi ki, Avropa Birliyinin Riqa sammiti ərəfəsində "Şərq tərəfdaşlığı" ölkələrini hədələmişdi.**

**Təbii ki, belə bir bəyanatın Vladimir Putinin ölkəmizə səfərinə sayılı günlər qalmış səslənməsi xüsusi diqqət çəkir. Yada salaq ki, səfər proqramı ilə bağlı prezidentin köməkçisi Yuri Uşakov Bakı görüşləri çərçivəsində Azərbaycan və Rusiya prezidentlərinin Qarabağ məsələsi ilə yanaşı, 2014-cü ilin sentyabrında Həştərxanda keçirilmiş dördüncü Xəzər sammitində qəbul edilən qərarların yerinə yetirilməsinin gedişinin müzakirə olunacağını söyləmişdi. Həmin qərara görə, "Xəzərlə bağlı bütün mühüm məsələlərə dair yalnız 5 sahilyanı ölkənin qərar vermək hüququ var".**

Luikaşeviç isə köməkçinin açıqlamasının üstündən heç bir gün keçməmiş və şübhə yox ki, həm də Kremlin razılığı ilə bəyan edir ki, "həmin qərar Xəzərin dibi ilə çəkiləcək boru kəmərlərinə də aiddir". Bununla da Putinin səfəri ərəfəsi Azərbaycan faktiki, qaz şantajına məruz qalmış kimi görünür.

***

"Bu xəbərdarlıq - quldurluq, dünyaya hökmranlıq etmək iddiasıdır. Belə bir iddianı irəli sürən ölkənin özü Baltik dənizinin dibindən Avropaya qaz kəməri çəkir, Qara dənizin dibindən Türkiyəyə "Mavi axın" qaz kəməri inşa edib və 10 ildir ki, istismar edir. İndi isə Ukraynadan Avropaya göndərdiyi qazı Qara dənizin dibindən çəkərək Türkiyə ərazisinə çıxardıb, oradan da Avropaya satmaq istəyir. Yəni dünyada dənizin dibindən qaz kəməri çəkməyi birinci dəfə Rusiya tətbiq edib". Bunu politoloq Qabil Hüseynli Rusiya XİN-in açıqlamasını ölkə.az-a şərh edərkən deyib.

**Onun sözlərinə görə, "Transxəzər" qaz kəməri sırf Xəzərin Azərbaycan və Türkmənistan hissəsinə aid yerdən keçdiyi və həmin ərazilər də Azərbaycan və Türkmənistanın suveren əraziləri olduğundan, Xəzərin statusunun təyin edilib-edilməməsi yalnız bu iki dövlətə aid məsələdir:** "Rusiya əsas kimi iki səbəb göstərir: birinci Xəzərin status məsələsi, ikincisi isə ekoloji təmizlik. Xəzərin statusu məsələsində Azərbaycan, Rusiya, Türkmənistan arasında dənizin dibinin, onun mineral ehtiyatlarının bölünməsi haqda saziş imzalanıb. O sazişə əsasən, bu qaz kəmərinin çəkilməsinə Azərbaycan icazə verirsə Rusiya heç bir irad tuta bilməz. Xəzərin ekoloji təmizliyinə gəlincə isə, həmin qaz kəmərini çəkən şirkətlər dünyanın aparıcı ekspertlərinə çəkəcəkləri qaz kəmərinin 100% ekoloji cəhətdən təmiz və ən azından 100 il istismara yararlı olması haqqında ortaya ekspertiza rəyləri qoyublar. Xəzərin çirkləndirilməsi məsələsi də mümkün deyil. Hər şey qaydada olduğu halda Rusiyanın dedikləri böyük dövlətçilik şovinizmidir, kiçik dövlətlərə yuxarıdan aşağı baxmaq, onların hüquqlarını tanımamaq məsələsidir".



Mixail Saakaşvili

Politoloq əlavə edib ki, Xəzərin qazı Avropaya, dünyanın aparıcı dövlətlərinə lazımdır və yəqin ki, onlar bu məsələdə beynəlxalq hüququn normalarından istifadə edərək "Transxəzər" qaz kəməri layihəsinin çəkilməsinə nail olacaqlar. "Bir zamanlar Bakı-Tiflis-Ceyhanın çəkilməsində də belə hallar ortaya atıldı, ancaq sonradan hər şey qaydasına düşdü" - qeyd edib şərhçi.

***

Rusiyanın "Transxəzər"ə qarşı hücumunun məhz bu ərəfəyə təsadüf eləməsinin arxasında TANAP və TAP layihələrinin "Türk axını"na (əvvəlki adı "Cənub axını") əngəl olmasının dayanması əslində yeni məsələ deyil. Son zamanlar "Türk axını"nın keçəcəyi tranzit ölkələrə ABŞ-ın, Avropa Birliyinin təzyiq etməsi Moskvada açıq-aşkar qıcıq yaradırdı.

Ancaq Moskvanın Bakıya qaz hədəsinin başqa motivləri də yox deyil. Söhbət ilk növbədə Putinin qatı ideya düşməni, İlham Əliyevin isə dostu Mixail Saakaşvilinin Odessa vilayətinə Qərbin xeyir-duası ilə qubernator gətirildikdən dərhal sonra Rusiyanın regiondakı, hətta Xəzərdəki maraqlarına zərbə vuracaq "yol planı"ndan və bu plan çərçivəsində verdiyi bəyanatlardan gedir.

**Bu barədə az öncə yazmışdıq. Ekspertlərdən biri qəzetimizə bildirmişdi ki, Saakaşvilinin məhz strateji əhəmiyyətli liman şəhərinə qubernator təyin olunmasının arxasında ciddi siyasi mətləblər dayanır.** Sitat: "Burda Azərbaycan amili də var. Məsələ ondadır ki, Odessa Qara dənizə çıxışı olan liman şəhəridir. Şəhərdə bölgənin nəhəng neftayırma zavodu var. Bu zavoda ARDNŞ illərdir maraq göstərir. İkincisi, Azərbaycan Gürcüstanın Qara dənizə çıxan limanlarında qaz terminalları inşa edir. Gələcəkdə bu terminallar vasitəsilə Qara dəniz ölkələrinə sıxılmış qaz satmaq olar. Həmin sıxılmış qazı Odessa limanı üzərindən Ukraynaya satmaq olar. Onsuz da Ukrayna Rusiyadan qaz asılılığını azaltmaq istəyir. DeməK, Odessaya çatdırılan Azərbaycan qazı Ukrayna üçün alternativ enerji mənbəyi rolunu oynayacaq. Digər tərəfdən, təxminən 15 ildir ki, Bakı ilə Kiyev arasında Odessa-Brodı neft kəmərinin Azərbaycan nefti ilə doldurulmasına dair danışıqlar gedib. Saakaşvili Odessa qubernatoru olaraq bu layihəni də aktuallaşdıra bilər".

Yəni Saakaşvili Azərbaycan-Ukrayna iqtisadi və enerji əməkdaşlığının hərəkətverici qüvvəsinə çevrilə bilər. Saakaşvilinin Bakı ilə Kiyev arasında bu vasitəçiliyi isə Azərbaycanın xeyrinədir: "Saakaşvili Azərbaycanın və prezident İlham Əliyevin yaxın dostudur. Bu dostluq imkan verəcək ki, necə ki, Azərbaycan vaxtilə Gürcüstana yatırımlar həyata keçirdi, eləcə də indi Azərbaycan Odessanın müxtəlif sahələrinə yatırımlar həyata keçirsin. Ukraynada hazırda iqtisadi vəziyyət ağır olsa da, Ukrayna bazarı Gürcüstan bazarından böyükdür".

***

Dünən isə Saakaşvili Azərbaycanla bağlı başqa bir mühüm iqtisadi layihənin anonsunu verib. O, Asiyadan Avropaya daşınan yüklərin Rusiyadan yan keçərək daşınması üçün bərə keçidi və logistik mərkəzlərin tikintisi ilə bağlı planlarını açıqlayıb.

Saakaşvili bildirib ki, Rusiyadan Avropaya yüklər 30 günə daşınır: "Azərbaycan və Gürcüstanın dəniz limanı Potidən Odessaya qədər yüklərin daşınması üçün cəmi 9 gün çəkə bilər. Bura biznesi gətirmək üçün yük daşımalarına tətbiq olunan tarifləri aşağı salmaq lazımdır. Tariflər yüksəkdir. İkincisi isə, bərə keçidləri, logistika mərkəzləri var".

Gürcüstanın sabiq prezidenti vurğulayıb ki, Odessa böyük potensiala malikdir. Onun sözlərinə görə, artıq bərə keçidi və logistik mərkəzlərinin tikintisinə pul yatırmaq istəyən investorlar da var: "Planların reallaşdırılması üçün Odessa vilayətini korrupsiyadan təmizləmək lazımdır".

***

Söz yox ki, Rusiyanın iqtisadi təcridini gücləndirəcək, büdcə gəlirlərini kəskin azaldacaq Qərbin bütün bu və digər planlarından Moskva xəbərdardır. Odur ki, Kreml kontur-addımları işə salaraq ilkin mərhələdə heç olmasa, "Türk axını"nı xilas eləmək, bu boru kəməri önündə siyasi-iqtisadi əngəlləri götürmək, yekun etibarilə Avropanın Rusiyadan ənənəvi qaz asılılığının qalmasına çalışır.

**Bu yolda açar amil - dövlət əlbəttə ki, Azərbaycandır. Söhbət həm də ölkəmizi nəyin bahasına olur-olsun, Avrasiya layihələrinə qoşmaqdan gedir.**

**Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 126 (6154) 11 iyun 2015

**Parlament seçkilərinə 5 ay qalıb. Lakin partiyaların passivliyi parlament seçkiləri ilinə adekvat deyil; bəziləri parlament seçkilərində irəli sürəcək namizədlərini müəyyənləşdirirlər, bəziləri qurultaya hazırlaşır, əksəriyyətinin isə hətta sədrlərinin parlament seçkilərində namizəd kimi iştirak edib-etməyəcəkləri, hansı dairədən namizəd olacaqları dəqiqləşməyib. Belə partiyalar seçkidə yetərli səs ala bilməyəndə yəqin ki, birinci səhvi özlərinin gecikməsində deyil, seçkilərin saxtalaşdırılmasında axtaracaqlar.**

# Partiyalarda yay durğunluğu hökm sürür

## Seçki hazırlıqları zəif gedir; hər kəs namizədlərini müəyyənləşdirir


Nüşabə Sadıqlı


Pənah Hüseyn


İqbal Ağazadə

Bir sıra partiyaların hazırda gündəmində hansı işlərin olduğunu araşdırdıq.

Məlum oldu ki, Müsavat Partiyasında hələlik namizədlərin ilkin müəyyənləşməsi prosesi gedir. **Müsavat Məclisinin sədri Nüşabə Sadıqlı** dedi ki, Müsavat parlament seçkilərinə ciddi şəkildə hazırlaşır: “Müsavat Məclisi ötən ilin sonunda parlament seçkilərinə hazırlıqla bağlı qərar qəbul edib. Partiyanın strukturları, eyni zamanda rayon təşkilatları bu seçkilərə hazırlıq işini həyata keçirir. Artıq 70-dən çox dairədən Müsavatdan namizəd olacaq şəxslərin adı müəyyənləşib və yəqin ki, Məclisin növbəti toplantılarının birində namizədlərin siyahısı dairələr üzrə təsdiq olunacaq. Eyni zamanda seçki kampaniyası ilə əlaqədar təşkilati-texniki işlərin həyata keçirilməsi istiqamətində işlər davam etdirilir”.

8 partiyanın daxil olduğu “Azadlıq-2015" seçki blokundakı partiyalar da namizədlərini müəyyənləşdirirlər. **Blokun üzvü olan AXP-nin sədri Pənah Hüseyn** bildirdi ki, blokun namizədlərinin müəyyənləşməsi oradakı partiyaların öz namizədlərini təqdim etməsi şəklində baş verir: "Hazırda vəziyyət onu göstərir ki, bu, davamlı olaraq namizədlər irəli sürüləcək. Yəni bu proses birdəfəlik akt sayılmamalıdır. Partiyalar hansı dairədən kimlərin namizədliyini irəli sürmək barədə təkliflərini blokun seçki qərargahına təqdim edirlər. Məsələn, artıq Xalq Partiyası 5-dən artıq dairədə öz namizədlərini təqdim edib. Bu proses davam edəcək. İndiki mərhələdə əsas məsələ blokun öz daxilində dairələrin və namizədlərin razılaşdırılmasıdır. Yeni namizədlərin blok adından irəli sürülməsi, bloka daxil olan partiyaların adından namizədlərin təklif edilməsi prosesində müəyyən dəyişikliklər də mümkündür".

P.Hüseyn dedi ki, blokun rəhbərliyinin hər həftə toplantısı keçirilir, seçki qərargahı fəaliyyət göstərir. Hələlik gündəmdə etiraz aksiyası keçirmək yoxdur.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** partiyanın gündəmində parlament seçkilərinə hazırlığın mühüm yer tutduğun bildirdi: “Həm Ümid Partiyası, həm "125-lər" bloku çərçivəsində bu işimiz gedir, ADP ilə bu istiqamətdə bir sıra danışıqlarımız var. Yəqin ki, daha detallı danışacağıq. Başqa partiyaların heç biri ilə dairələrlə bağlı uzlaşdırma, razılaşdırma istiqamətində iş aparılmır. Bir blokda deyiliksə, uzlaşdırma, razılaşdırma olmayacaq. Çünki hər partiyanın və blokun öz maraqları var. Seçki məsələlərində üçmərhələli iş aparırıq".

**AMİP sədri Yusif Bağırzadə** bildirdi ki, hazırda partiyanın gündəmində prioritet məsələ payızda keçiriləcək parlament seçkilərinə hazırlıq işləridir: “Parlament seçkilərinə çox ciddi yanaşırıq və hazırlaşırıq. Digər partiyalarla seçkilərdə əməkdaşlıq platformamızı ortaya qoyacağıq. Hələ ki, AMİP-in seçkidə blok şəklində yoxsa, tək gedəcəyi dəqiqləşməyib. Bu məsələ açıqdır. Namizədlərin isə müəyyənləşməsi prosesi gedir. Platformamız hazırdır, seçki qərargahımız fəaliyyət göstərir. AMİP həmişə kütləvi aksiyalara hazır olan partiyadır, ancaq hazırda partiyanın gündəmində etiraz aksiyası keçirmək yoxdur”.

**KXCP sədrinin müavini Xəzər Teyyublu** da bildirdi ki, partiyanın gündəmində əsas məsələ parlament seçkilərinə hazırlıq, namizədlərin müəyyənləşməsidir: “KXCP "Azadlıq-2015" blokunun üzvü olduğu üçün hazırlıqlarımızı, işlərimizi blokla uzlaşdırırıq. Blokun seçki qərargahının rəhbəri KXCP-nin Ali Məclisinin sədri Bəybala Əbildir. Bu, KXCP-nin məsuliyyətini bir az da artırır. Blokun və partiyamızın hazırda gündəmində kütləvi aksiya keçirilməsi yoxdur".

❑ Etibar SEYİDAĞA

# “Milli Şura AXCP-nin oyuncağıdır”

## Azər Əsgərov Əli Kərimli və Cəmil Həsənlinin ünvanına ağır ittihamlar səsləndirdi; mülk sahibi Avropa Parlamentinin qarşısında aksiyaya hazırlaşır

**AXCP qərargahının sökülməsindən 15 ay ötür. Bu müddət ərzində mülk sahibi Azər Əsgərovla partiya rəhbərliyi arasında yaranan narazılıq yeni mərhələyə qədəm qoyub. A.Əsgərov sökülən mülkünün müqabilində Əli Kərimlinin hakimiyyət və xarici təşkilatlardan pul alaraq, susduğunu iddia edir.**

Mülk sahibinə dəyən ziyana görə, kompensasiya ödənilmir. Keçən bu müddət ərzində AXCP qərargahı paralel evləri sökülən sakinlər yaşayış mənzilləri ilə təmin olunublar, tək Azər Əsgərovdan başqa. AXCP mülk sahibini mübarizədə tək qoyub. Yerli məhkəmələri uduzan A.Əsgərov Avropa Məhkəməsinə müraciət etməyi və Avropa Parlamentinin qarşısında aksiya keçirməyi planlaşdırır.

**Bu barədə musavat.com-a Azər Əsgərovun özü məlumat verdi:** “Cəbhəçilər artıq hər şeyi yaxşı anlayırlar. Partiyadan qovulanlar buna sübutdur. Kim haqq səsini ucaldırsa, dərhal xaric olunur. Əli Kərimlinin iç üzü artıq açılır. Mülkümü ona qərargah kimi vermişdim. Söküldü, amma Əli Kərimli susdu. Niyə? Nə kompensasiya, nə də ev verilir. Qonşuluğumda olan üç evi də sökmüşdülər. Hər üç ev sahibinə Heydər Əliyev prospektindən ev veriblər. Mənə isə vermirlər. Kirayə haqqı belə ödənilmir. Nazirlərin qəbulunda olmuşam. Nərimanov icra başçısının müavini Şahmar İbadovla görüşmüşəm. Nəticəsi yoxdur. Milli Şura da, məni satdı. Cəmil Həsənli Əli Kərimlinin "peşka"sıdır. O, nə deyirsə, onu da edir. Kənara çıxmağa cəsarəti çatmır. Əslində qalsa, Milli Şura AXCP-nin oyuncağıdır. Bu qurumun daxilindən mənə elə faktlar deyilib ki, sizlərə desəm, tükləriniz biz-biz olar. Əli Kərimlinin qərargahı dağıdılmışdı, müdafiə edə bilərdi. Söküntü aparmağa dövlətin ixtiyarı yox idi. Bütün işlər üzərimdə qalıb. Təkbaşına haqqım uğrunda vuruşuram. Məhkəmələr iddiamı təmin etmədilər. İş Ali Məhkəmədədir. Ondan sonra Avropaya gedəcək. Hakimiyyət dairələrinə demişəm ki, mənzilimi geri qaytarın. Əgər qaytarmasalar, Avropa Parlamentinin qarşısında aksiya keçirəcəm. Əli Kərimli qorxaq olub, pulun müqabilində susa bilər.




Ondan heç zaman lider olmayacaq. Mən susmayacam. Apardığım mübarizəni Əli Kərimli aparmalı idi. 1 milyon 800 min manat hakimiyyət orqanlarından pul alıb. Susması üçün. Mülk söküləndə, həmin əraziyə gələnlərin qarşısı birbaşa onun göstərişi ilə alınıb".

**Mülk sahibi AXCP liderinin ünvanına ağır ittihamlar səsləndirdi:** “ABŞ və Fransa səfirliyindən 500 min dollarlıq qrant alıb. Dövlətin qərargahını dağıtması ilə bağlı. Bu mülk sənin atanın deyildi Əli Kərimli? Mülkümü kimə versəydim, sona qədər vuruşacaqdı, məni müdafiə edəcəkdi. Bu adam məni müdafiəsiz qoydu. Pulunu aldı, əlaqəni kəsdi. Namizəd Səfərova deyirəm ki, Milli Şura niyə bir işlər görmür. O da susur. Çünki bu oyunların başında Əli Kərimli durur. O, öz üzvlərini tutdurub, qrant alan şəxsdir. Bunun üçün qərargah lazım deyil. Çıxışlarının birində deyirdi ki, bizə qərargah lazım deyil, küçələrdə də mübarizə apararıq. Ona qərargah yox, pul lazım idi. Hakimiyyət də istəmirdi ki, təşkilatlanma olsun. Çünki mülkümdə insanlar təşkilatlanırdı. Əli Kərimliyə pul verdilər, o da kənara çəkildi. Gözəl Bayramlı təzyiqini ölçdürməyə Tiflisə gedir, Həsən Kərimov ildə neçə dəfə Türkiyə müalicəyə gedir. Hansı pullarla müalicə gedirsiniz? Mülkümün və qrantların hesabınadır. Bir cəbhəçi mənə dedi ki, Əli Kərimli iki səfirlikdən qərargah dağıdıldığına görə, 1 milyon pul alıb. Dövlətdən ala bilməsəm, ondan tələb edəcəm. Ailəsi Londonda kef edəcək, mən də susacam? Bəzi cəbhəçilər artıq anlayır. Bəziləri isə, sanki kordur. Ağıllı insanlar vaxtında ayılırlar”.

**Xatırladaq ki, AXCP qərargahında partlayış ötən il martın 3-də baş vermişdi. Nəticədə içəridəki avadanlıqlara ciddi ziyan dəymiş, partiya qərargahdan çıxarılmışdı. Mülk isə, tamamilə sökülmüşdü.**

❑ Cavanşir ABBASLI







# Bələdiyyə sədrinin qatili Zakir Fərəcovun adamı olub

## Vəsilə Əbilhəsənovanı öldürən şəxs bir müddət Abşeronun İH başçısının bacısının sürücüsü olub; qatil həmçinin Fərəcovlarla şərikli torpaq biznesi həyata keçirib; icra başçısının istintaqa cəlb ediləcəyi haqda məlumatlar var

**Saray bələdiyyəsinin sədri, 39 yaşlı Vəsilə Əbilhəsənovanın və onun həyat yoldaşının qətlindən sonra olayda Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun adı hallanmağa başlayıb. Bu da təsadüfi deyil. Z.Fərəcov 1999-2004-cü illərdə Sumqayıt bələdiyyəsinin sədri olduğu vaxtlarda adı dəfələrlə neqativ məsələlərdə, hətta kriminal olaylarda keçib. Onun adı heç icra başçısı olduğu dövrlərdə də yaxşı işlərdə hallanmayıb. Vaxtaşırı bu qalmaqallı başçısının ismi ən müxtəlif neqativ olaylarda çəkilir. Bu qətl olayında da Zakir Fərəcovun adı çəkilir. Belə söhbətlər gəzir ki, istintaq obyektiv aparılsa, işdə Zakir Fərəcova aparan kifayət qədər ipucları var. İcra başçısının istintaqa çağırılacağı da istisna deyil.**

Cumhuriyyet.az yazır ki, Əbilhəsənovların qətli ilə bağlı həbs olunan 35 yaşlı Fədai Hüseynov məhkəməsində ilginc faktlar açıqlanıb. F.Hüseynovun indiyədək açıq qalan 3 cinayət işi olması ilə yanaşı onun V.Əbilhəsənovanın sürücüsü və tapşırıqlarını yerinə yetirən şəxs olduğu üzə çıxıb. Eyni zamanda bu dəhşətli qətldə torpaq satışı amilinin rol oynaması Abşeron rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun da adını dolayısı ilə bu işə bağlayan məqamlar ortaya çıxarır.

Əvvəla, məlum olur ki, Fədai Hüseynov bir vaxtlar Abşeron Rayon İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun bacısı Nərgiz xanımın da sürücüsü işləyib, qardaşları Abşeron rayonunda, xüsusən də Saray qəsəbəsində torpaq satışı məsələsində Z.Fərəcovun Abşeron Rayon İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsində işləyən bacısı oğlu Elgiz Fərəcov və qətlə yetirilən bələdiyyə sədri ilə əlbir işləyiblər. Bu həmin Elgiz Fərəcovdur ki, ötən il mətbuatda onun hüquq-mühafizə orqanları tərəfindən saxlanıldığına dair məlumatlar yayılmışdı. Həmin məlumatlarda bildirilirdi ki, onun həbsinə səbəb qeyri-qanuni torpaq satışı təşkil etməsi və bu zaman başqasının etibarından sui-istifadə etməsi olub. Şikayət əsasında həyata keçirilən əməliyyat tədbiri nəticəsində həbs olunan E.Fərəcov dayısı Zakir Fərəcovun müdaxiləsi nəticəsində bir müddət sonra sərbəst buraxılıb. Z.Fərəcov bu hadisənin onun nüfuzuna və gələcək planlarına zərbə vuracağından narahat olaraq bacısı oğlunu həbsdən qurtarıb. Həbsdən çıxan E.Fərəcov isə əvvəlki əməllərini davam etdirib və Abşeronda torpaq biznesinin əsas fiqurlarından biri kimi fəaliyyətini davam etdirir.

Baş verən dəhşətli qətl işində Z.Fərəcovun adının çəkilməsinin bir səbəbi isə bu il aprelin 29-da moderator.az saytında dərc olunan “Saray bələdiyyəsinin xanım sədri qoçu dəstəsi saxlayır” sərlövhəli yazıdır. Şikayətçi Fikrət Məmmədovun məktubu əsasında hazırlanan həmin yazıda Saray bələdiyyəsində baş verənlərdən bəhs olunur. Torpaq alverində icra başçısı Zakir Fərəcovun qohumu Elgiz Fərəcovun, onun dostu kimi qatil Fədai Hüseynovun, qardaşı Vüqar Hüseynovun və Vəsilə Əbilhəsənovanın adları hallanır. Tamamilə mümkündür ki, qətl torpaq mübahisəsi zəminində baş verib.

Bu arada daxil olan məlumata görə, iki nəfərin qətli ilə bağlı istintaq işində bütün bu məqamların nəzərə alınacağı və araşdırmaların da məhz bu istiqamətdə gedəcəyi gözlənilir. Ehtimal olunur ki, qətl işinin materialları Abşeron Rayon Prokurorluğundan alınaraq Bakı Şəhər Prokurorluğuna veriləcək. Bu addımın işin Abşeron rayon Prokurorluğunda obyektiv araşdırılmasının qarşısının alınmasına ola biləcək təsirlərin aradan qaldırılması üçün atılacağı gözlənilir.

**Göründüyü kimi, Z.Fərəcovun adının bu dəhşətli qətl işi ilə bağlı gündəmə gəlməsini şərtləndirən çox ciddi məqamlar var və yəqin ki, həm icra başçısı, həm də onun yaxın ətrafı çox ciddi suallara cavab verməli olacaqlar.**

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 126 (6154) 11 iyun 2015



# Putin Nazarbayevlə Şeyxi niyə mükafatlandırdı?

## Rusiya prezidentinin təltiflərinin xidmət etdiyi amac və Allahşükür Paşazadənin Kreml rəhbəri qarşısında götürdüyü öhdəlik...

**Rusiya hökuməti post-sovet respublikalarının tanınmış şəxslərinə, ayrı-ayrı sahələrdə nüfuzlu insanlara mükafatlar bağışlayır. Daha əvvəl "Georgiyevski lenti" kampaniyası bütün post-sovet məkanına yayıldı. İndi isə daha çox tanınmış, nüfuzlu insanlara mükafatlar verilir. Azərbaycandan Şeyxülislam Allahşükür Paşazadə, rejissor Vaqif Mustafayevə ali mükafatlar verib. Bu günlərdə isə Qazaxıstan prezidenti Nursultan Nazarbayev Rusiyanın ali mükafatı ilə təltif olunub.**

Bu, bir siyasətdirmi? Rusiyanın ətraf, xüsusən də keçmiş müttəfiq ölkələrin nüfuzlu şəxslərini mükafatlandırmasının arxasında hansı səbəblər dayanır? **Politoloq Elxan Şahinoğlu** deyir ki, bu cür mükafatlandırma Rusiyanın ənənəvi dəst-xəttidir. Bununla insanları öz təsiri altına almağa çalışırlar: "Tarixən Rusiya çarları fərqli xalqları öz təsiri altında saxlamaq üçün həmin xalqların liderlərinə müxtəlif statuslar verirdi. Bununla çar Rusiyası həmin liderlər vasitəsilə xalqları idarə etməyə çalışırdı. Hazırkı Rusiya siyasəti də çar dövrünün ənənəsini xatırladır. Rusiyanı idarə edənlər orden və medallar vasitəsilə Azərbaycanı öz təsir imkanları altında saxlamağa çalışırlar. Misal üçün Cənubi Qafqaz və Azərbaycanda marağı olan ABŞ heç kimə orden və medal vermir. Bu boşluğu Rusiya məharətlə doldurur".

**E.Şahinoğlu deyir ki, Rusiya prezidentindən medal alan şəxs isə istər-istəməz Rusiyanı tənqiddə ehtiyatlı olur, Moskvanın regional siyasətinə hörmətlə yanaşır:** "Məsələn, Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxinin əlindən Putinin ali mükafatını alan Allahşükür Paşazadə deyib ki, "Putin ona həmişə yüksək etimad göstərir və o bu etimadı doğrultmağa çalışır". Ziddiyyətli ifadədir. Çünki Allahşükür Paşazadə ilk növbədə Azərbaycan xalqının və prezidentinin etimadı doğrultmalıdır. Onun heç bir xarici ölkə prezidenti qarşısında öhdəliyi olmamalıdır. Doğrudur, Paşazadə Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri olaraq Rusiyanın tərkibindəki Şimali Qafqaz xalqlarının da lideri sayılır. Ancaq bu, simvolik xarakter daşıyır. Rusiya Paşazadənin yurisdiksiyasını Azərbaycanda bitmiş hesab edir. Şimali Qafqaz xalqları Paşazadəni özlərinin dini lideri saymırlar".

**Politoloq deyir ki, bu cür mükafatlar yerli məşhurlar üçün də əlverişlidir, onları hakimiyyətlərin təzyiqlərdən qoruyur:** "Bu arada, Azərbaycan hakimiyyəti Allahşükür Paşazadənin fəaliyyət imkanlarını məhdudlaşdırmağa çalışır. Prezident İlham Əliyev hakim partiyanın fəal deputatı Mübariz Qurbanlını Dini Komitəyə sədr təyin etməklə din sahəsində qayda-qanun yaratmağa qərar verdi. Mübariz Qurbanlının ilk addımlarından biri təmtəraqlı yas mərasimlərinin neytrallaşdırılması oldu. Ancaq bu məsələdə Mübariz Qurbanlı Qafqaz Müsəlmanları İdarəsinin güclü müqaviməti ilə üzləşdi, çünki ortada yaslardan qazanılan böyük pullar var idi və təəssüf ki, biz yenidən yas mərasimlərində təmtərağa qayıtdıq. Buna baxmayaraq, Mübariz Qurbanlının rəhbər olduğu Dini Komitənin səlahiyyətləri artırıldı. Bundan sonra xarici ölkələrdəki dini ziyarətgahlara səfərlər təşkil edən turistik şirkətlər Dini Komitədən lisenziya almalıdırlar. Əvvəl bu cür şirkətlər Qafqaz Müsəlmanları İdarəsi ilə əməkdaşlıq edirdilər. Yəni aşkar hiss olunur ki, dövlət başçısı dini sahədə qayda-qanun yaratmaq istəyir, manea kimi isə qarşısında Qafqaz Müsəlmanları İdarəsi görür və Putinin Paşazadəni mükafatlandırması prezidentin əlini zəiflədir".

**Ancaq Rusiya prezidenti xarici ölkə vətəndaşlarına mükafatlar verməklə yanaşı qonşu dövlətlərə xəbərdarlıq mesajları göndərməkdə də davam edir. E.Şahinoğlu deyir ki, Rusiya rəsmiləri artıq açıq şəkildə region ölkələrini təhdid edirlər:** "Rusiya desant qüvvələrinin komandanı Vladimir Şamanov ötən həftə müsahibə verərək deyib ki, Rusiya dünyanın istənilən nöqtəsinə müdaxilə edə biləcək xüsusi qoşun növü yaradır. "Bizə viza lazım deyil, prezidentin əmri kifayətdir" - deyən rusiyalı general sanki qonşu dövlətləri şantaj edir. Həqiqətən Rusiyanın Abxaziya, Cənubi Osetiya və Abxaziyanı işğal etməsi üçün heç kimin "vizasına" ehtiyacı olmadı.

Rus generalın açıqlamasının Azərbaycana da aidiyyəti var. Rusiya və Azərbaycan rəsmiləri iki dövlət arasındakı münasibətlərin strateji tərəfdaşlıq mahiyyəti daşıdığını vurğulayırlar. Buna baxmayaraq, Bakının Moskvadan, Moskvanın isə Bakının siyasətindən narazılığı var".

**Hazırda Azərbaycan və Rusiya arasında münasibətlərin yüksək səviyyədə olduğu görüntüsü yaransa da, həmsöhbətimizin fikrincə, əslində iki ölkə hakimiyyətləri arasında ciddi narazılıq var:** "Bakının Moskvadan narazılığı odur ki, Kreml Dağlıq Qarabağ münaqişəsinin həlli məqsədilə təsiri altındakı Ermənistan hakimiyyətinə təsir etmir. Başqa narazılıq ondan ibarətdir ki, Moskva Dağlıq Qarabağda girov saxlanılan 2 azərbaycanlının azadlığa buraxılması üçün də addımlar atmır.

Moskvanın isə Bakıdan narazılığı ondadır ki, Azərbaycan hakimiyyəti Rusiyadan yan keçməklə Avropaya boru xətti çəkməyi planlaşdırır, Türkmənistan və İranın da bu layihəyə qoşulmasını istəyir. Rusiyanı Türkmənistanla Azərbaycan arasında Xəzərin dibi ilə boru xəttinin çəkilməsi layihəsi də narahat edir. Təsadüfi deyil ki, Rusiya Xəzər dənizində hərbi təlimlərin sayını artırıb.

Beləliklə, Kreml Bakıdan 2 istiqamətdə addım atmasını istəmir:

Birincisi, Azərbaycan Türkmənistan qazının Avropaya daşınması layihəsində iştirak etməsin;

İkincisi, Azərbaycan öz torpaqlarını azad etmək məqsədilə Dağlıq Qarabağda müharibəyə başlamasın.

Bu iki şərtin yerinə yetirilməsi Azərbaycanın maraqlarına ziddir. Ona görə də yaxın müddətdə bu iki məsələ ətrafında rəsmi Bakı ilə Kreml arasında ziddiyyət yarana bilər. Ya da ki, Rusiya prezidenti Azərbaycan və Türkiyə ilə əməkdaşlığı genişləndirmək məqsədilə Azərbaycan torpaqlarının geri qaytarılması üçün real addımlar atmalıdır".

❑ **KƏNAN**

# İdmançı kürd bayrağına görə cəzalandırılmalıdırmı?

## Ekspert: "Əgər bu idmançı təmsil etdiyi ölkədən başqa digər simvollardan da istifadə edirsə..."

**Sosial şəbəkələrdə əlbəyaxa döyüş üzrə 4 qat dünya çempionu Anar Süleymanovun yarışların birində arenaya Şimali İraq kürd administrasiyasının bayrağı ilə çıxdığı ilə bağlı fotolar yayılıb. Foto şəkillərdə idmançının yaxasında sol tərəfdə Azərbaycan bayrağı, sağ tərəfdə isə İraq kürd muxtariyyətinin bayrağı var.**



Dörd qat dünya çempionu olan A.Süleymanov "Xəzər" televiziyasının çəkdiyi bir serialda polis kapitanı rolunu oynayıb. Anar Süleymanov "qafqazinfo"ya açıqlamasında məsələyə belə aydınlıq gətirib: "Mən hər zaman Azərbaycanı təmsil etmişəm. Amma indiyə qədər çıxdığım bütün döyüşlərdə köynəyimin sağ tərəfində kürd bayrağı olub. Özüm Laçın kürdüyəm. Ona görə də millətimə hörmət olaraq belə bayraqla meydana çıxmışam. Mənim PKK-ya dəstək olduğumu yazırlar. Amma bu yalandır. Mənim onlardan xoşum gəlmir. Yarışlarda da daim üçrəngli bayrağımızı yüksəltmişəm. 4 dəfə dünya çempionuyam və qalib olduğum bütün yarışlarda Azərbaycan bayrağını dalğalandırmışam".

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədova isə məsələnin araşdırılacağını və idmançının cəzalanacağını deyib: "Hazırda bizdə bu idmançı haqqında məlumat yoxdur. Amma məsələ yenə də Əlbəyaxa Döyüş Federasiyası tərəfindən də, bizim tərəfimizdən də araşdırılır. Ümumiyyətlə, idmançılara nazirlik tərəfindən də, federasiyalar tərəfindən də milli geyimlər paylanılır. Yəni onlar yarışlara getdikdə bu forma ilə meydana çıxırlar. Bu məsələ tam araşdırılacaq, bu hal təsdiqlənərsə, idmançı cəzalanacaq. Çünki bu qaydalara ziddir".

**Qeyd edək ki, idmançının yaxasında asılan bayraq İraqın şimalında yerləşən və faktiki olaraq dövlət olan kürd muxtariyyətinə məxsusdur. Yaxın Şərq regionunun 4 ölkəsinə - Türkiyə, İran, İraq və Suriyaya - yayılan kürdlərin hələlik yeganə tanınmış muxtar ərazisi məhz Şimali İraqdadır.** Mərkəzi şəhəri Ərbil olan kürd muxtariyyəti faktiki olaraq ordusu, xarici siyasəti və polisi olan dövlətdir, hətta bir sıra hallarda Bağdadla belə hesablaşmır. Azərbaycandan da bir sıra qüvvələrin Ərbildəki kürd administrasiyası ilə yaxın əlaqələri var. Ancaq xarici bir ölkənin muxtar qurumunun bayrağını yarışlarda Azərbaycan idmançısı tərəfindən simvol kimi istifadə olunması birmənalı qarşılanmır, haqlı olaraq etirazlara səbəb olur. Bəs qanunlar nə deyir?

**Siyasi şərhçi, "Trend" Agentliyinin direktor müavini Arzu Nağıyev** deyir ki, qanunvericilik idmançıya başqa dövlətin bayrağını yaxasına yapışdırmağa görə cəza nəzərdə tutmur. Ancaq Azərbaycanı təmsil edən və bu ölkənin vətəndaşı olan şəxsin etnik amillərə əsaslanaraq başqa ölkənin simvollarını təbliğ etməsinə görə idman qurumları tərəfindən cəzalandırıla bilər: "Hər bir idman yarışında təsdiq edilmiş xüsusi forma və emblemlər, atributlar var. Formada onun təmsil etdiyi dövlətin bayrağı və ya gerbi ola bilər. Əgər bu idmançı təmsil etdiyi ölkədən başqa digər simvollardan da istifadə edirsə, bu qadağandır və dərhal oyunlardan kənarlaşdırılmalıdır. Bu ümumiyyətlə siyasi məqsəd daşıyırsa ikiqat ağır şəkildə cəzalandırılmalıdır. Mən düşünmürəm ki, burada hansısa cəza ola. Ən böyük cəza oyunlardan kənarlaşdırma və yəqin ki, cərimə və sanksiyası tətbiq etmək olar".

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 126 (6154) 11 iyun 2015




# Avropa Oyunlarına bir gün qaldı

## Son durum, hazırlıqlar... hamı və hər kəs hazırdır

**"Bakı-2015" ilk Avropa Oyunlarının başlanmasına cəmi bir gün qalıb. Paytaxtdakı yolların durumundan, hazırlıqlardan hiss olunur ki, yarışla bağlı son tamamlama işləri də yekunlaşıb.**

Bəs son durum nədən ibarətdir? Yarışın Təşkilat Komitəsindən verilən məlumata görə, bu günə kimi 34 yığmanın ilk nümayəndə heyəti Bakıya gəlib. Bunlar arasında ən geniş heyət Rusiyaya aiddir. Şimal qonşularımız iştirakçı ölkələr arasında ilk pillədə yer alır. Rusiyanın 50 regionundan - Moskva (97 nəfər), Moskva vilayəti (38 nəfər), Sankt-Peterburq (33 nəfər), Tatarıstan (17 nəfər), Krasnodar diyarı (16 nəfər) və digər bölgələrdən 359 atlet komandanın tərkibindədir. Onların arasında 7 olimpiya və 34 dünya çempionu var. Rusiyalı idmançılar yüngül atletikadan başqa bütün idman növləri üzrə yarışlarda iştirak edəcəklər.

Türkiyə isə "Bakı-2015"ə 20 idman növü üzrə ümumilikdə 153 idmançı ilə qatılacaq. Qardaş ölkə atletika üzrə 1, atıcılıq 4, basketbol 8, bədii gimnastika 4, boks 13, qılıncoynatma 3, stolüstü tennis 2, sambo 1, üzgüçülük 10, veloyarış 6, güləş 24, karate 11, oxatma 2, çimərlik voleybolu 4, triatlion 3, cüdo 2, sinxron su polosu 13, voleybol 24, üzgücülük 12, kanoedə üzrə isə 6 nəfərlə təmsil olunacaq.

Böyük Britaniya da Avropa Oyunrına Olimpiya mükafatçıları da daxil olmaqla 158 idmançı ilə gəlir. Onlar suyatullanma, üzgüçülük, su polosu, kamandan oxatma, çimərlik voleybolu, avarçəkmə, qılıncoynatma, cüdo və bir sıra başqa növlərdə starta çıxacaqlar. Almaniya isə Azərbaycana mötəbər komanda - 266 idmançı göndərib. Almanlar Bakıda Avropa Oyunları proqramına daxil olan 20 növdən 16-da çıxış edəcəklər. Avropa Oyunrına ən az idmançı ilə qatılan ölkələr isə Lixtenşteyn (10) və Monakodur (6).

"Bakı-2015"də mübarizə aparacaq 6000 atletdən 150-si Olimpiya mükafatçısdır. Onlar arasında olimpiadanın qalibləri üstünlük təşkil edir. Belə ki, 150 Olimpiya mükafatçısından 59-u çempionlardır.

Qitənin ən böyük idman yarışının iştirakçıları 13 yaşayış binasından, yardımçı binalardan ibarət kompleksdə iki, üç və dördotaqlı 1042 mənzildən ibarət Atletlər kəndində yaşayacaqlar. "Evdən kənar ev" rolunu oyna bu möhtəşəm kəndin hər mənzili 2, 4 və 6 yataq otağından ibarətdir. Burada ümumilikdə 7499 atlet və rəsmi şəxs yerləşə biləcək. Atletlər kəndində idmançılar və komanda rəsmiləri üçün təhlükəsiz, rahat yaşayış şəraiti yaradılıb.

Atletlər kəndinin mədəniyyət və turizm mərkəzində isə sərgi təşkil olunacaq. Burada ölkəmizin müxtəlif dövrlərə aid sənətkarlıq nümunələri, o cümlədən xalça, geyim və məişət əşyalarının nümayişi və satışı təşkil ediləcək. "Best of Azerbaijan" adlanan yeməkxanasında isə ölkəmizin zəngin mətbəxinə aid təamlar təklif olunacaq və bu xidmətdən eyni vaxtda 450 idmançı istifadə edəcək. Atletlər kəndində əsas diqqət yetirilən məsələlərdən biri də yarışlar zamanı idmançılara və məşqçilərə, qonaqlara, ümumiyyətlə ehtiyacı olan hər kəsə yüksək tibbi xidmət göstərməkdir. Bu məqsədlə də burada xüsusi poliklinika fəaliyyət göstərəcək. Burada müxtəlif təyinatlı otaqlar, o cümlədən qeydiyyat, müalicə, stomatoloji, oftalmoloji, laboratoriya, rentgen, fizioterapiya və s. xidmət sahələri var. Poliklinika ən zəruri avadanlıqlarla təchiz olunub. Bu səhiyyə mərkəzi hər gün səhər saat 8-dən axşam saat 20-dək fəaliyyət göstərəcək və günün 24 saatı təcili yardım xidməti olacaq. Dopinq nəzarəti mərkəzi də poliklinika ilə yanaşı yerləşir.

Atletlər kəndi Oyunların keçiriləcəyi əsas idman komplekslərinə - Bakı Olimpiya Stadionuna, Milli Gimnastika Arenasına və Heydər Əliyev Beynəlxalq Aeroportuna yaxın olmaqla yanaşı, şəhərin müxtəlif istiqamətlərinə nəqliyyatın gediş-gəlişinin rahat olduğu bir ərazidə yerləşir.

**İyunun 12-də start götürəcək I Avropa ölkələrində iştirak edəcək ölkələrin adları və onları təmsil edən idmançıların sayı açıqlanıb. Beləliklə, aşağıdakı ölkələrdən göstərilən sayda idmançı I Avropa oyunlarında iştirak edəcək.**

1.Azərbaycan - 291 atlet
2. Rusiya -359
3. İtaliya - 291
4. Almaniya -266
5. Fransa - 251
6. Ukrayna - 243
7. İspaniya - 215
8. Polşa - 212
9. Macarıstan - 200
10. Türkiyə - 191
11. Slovakiya - 179
12. İngiltərə - 158
13. Belarus - 150
14. Rumıniya - 146
15. Avstriya - 145
16. İsrail - 141
17. Yunanıstan - 138
18. Serbiya - 133
19. Çexiya - 130
20. İsveçrə - 130
21. Bolqarıstan - 127
22. Hollandiya - 120
23. Belçika - 117
24. Xorvatiya - 109
25. Finlandiya - 106
26. Gürcüstan - 105
27. Portuqaliya - 100
28. Moldova - 86
29. Sloveniya - 83
30. İsveç - 76
31. Litva - 71
32. Latviya - 67
33. Dnimarka - 65
34. İrlandiya - 63
35. Malta - 61
36. Lüksemburq - 61
37. Estoniya - 59
38. Norveç - 58
39. B.Hersoqovina - 56
40. Monteneqro - 55
41. Makedoniya - 45
42. Andorra - 31
43. Albaniya - 28
44. Ermənistan - 25
45. Kipr - 23
46. San-Marino - 20
47. İslandiya - 19
48. Kosovo - 18
49. Lixtenşteyn - 10
50. Monako - 6

İlk Avropa Oyunlarının Olimpiya Stadionunda baş tutacaq Açılış Mərasimi üçün bütün biletlər satılıb. Bakı 2015 Avropa Oyunları Əməliyyat Komitəsindən (BEGOC) AzVision.az-a bildirilib ki, biletsiz insanlar da sehirli şoudan zövq almaq imkanına malik olacaq. Belə ki, Açılış Mərasimi 12 iyun tarixində saat 9-dan etibarən Baku2015.com saytından canlı olaraq yayımlanacaq.

Açılış Mərasimi ilə bağlı eksklüziv görüntülər sosial şəbəkələrdən paylaşılacaq. Hazırda idman yarışları üçün bilet satışları çox sürətlə satılır.

**Bakı 2015 idman yarışları üçün bilet almaq istəyənlər www.baku2015.com/tickets-də müraciət edə bilərlər. Bununla yanaşı, bilet köşklərindən də bilet almaq mümkündür.**

❑ **Sevinc TELMANQIZI**

# Atletlər kəndinə media tur

**İyunun 10-da media nümayəndələri birinci Avropa Oyunlarının Atletlər kəndində yaradılan şəraitlə tanış olublar. Media nümayəndələri arasında musavat.com-un əməkdaşı da olub. Birinci Avropa Oyunlarının keçirilməsi zamanı istifadə olunacaq Atletlər kəndi 383 min kvadratmetr sahəni əhatə edir. Atletlər kəndi Oyunların keçiriləcəyi əsas idman komplekslərinə - Bakı Olimpiya Stadionuna, Milli Gimnastika Arenasına və Heydər Əliyev Beynəlxalq Aeroportuna yaxın olmaqla yanaşı, şəhərin müxtəlif istiqamətlərinə nəqliyyatın gediş-gəlişinin rahat olduğu bir ərazidə yerləşir.**






Atletlər kəndində Avropa Oyunlarının iştirakçısı olan bütün ölkələrin bayraqları dalğalanır. Onlar arasında qardaş Türkiyə, Almaniya, Rusiya, Portuqaliya, Fransa və digər ölkələr də var.

Tur zamanı idman zallarında, yeməkxanada, inzibati binada və digər yerlərdə yaradılan şəraitlə tanış olduq. Verilən məlumatlara görə, 13 yaşayış binasından, yardımçı binalardan ibarət Atletlər kəndində 2,3 və 4 otaqlı 1042 mənzil var. Burada ümumilikdə 7500 atlet və rəsmi şəxsin qalması üçün hərtərəfli şərait yaradılıb.

İdmançıların və komanda rəsmilərinin təhlükəsizliyi üçün tədbirlər görülüb. Hər binanın birinci mərtəbəsində ümumi istirahət yerləri mövcuddur. Burada internetə pulsuz çıxış imkanı var. Oyunlar zamanı atletləri və qonaqları idman arenalarına vaxtında çatdırmaq üçün böyük avtobus dayanacağı inşa edilib.

Atletlər kəndində 4 super əyləncə və 3 sadə əyləncə mərkəzi fəaliyyət göstərir. Super əyləncə mərkəzinin fərqli cəhəti burada stolüstü tennis, bilyard və virtual qolf oynamaq üçün xüsusi oyun zallarının olmasıdır. Burada həmçinin idmançılar üçün playstation oyunları üçün belə şərait var.

**Burdan keçirik idman zalına. Xarici idmançılar burada məşq edirlər. Yerli idmançılarımız isə kəndə yenicə gəldikləri üçün bu gecədən etibarən məşqlərə başlayacaqlar. Zalda 130 müxtəlif trenajorlar quraşdırılıb.**

Atletlər kəndində əsas diqqət yetirilən məsələlərdən biri yarışlar zamanı idmançılara və məşqçilərə, qonaqlara, ümumiyyətlə ehtiyacı olan hər kəsə yüksək tibbi xidmət göstərməkdir. Bu məqsədlə xüsusi poliklinika fəaliyyət göstərir. Poliklinikada müxtəlif təyinatlı otaqlar, o cümlədən qeydiyyat, müalicə, stomatoloji, oftalmoloji, laboratoriya, rentgen, fizioterapiya, əczaxana və digər tibbi xidmət sahələri mövcuddur. Bu səhiyyə mərkəzi hər gün səhər saat 8-dən axşam saat 20-dək fəaliyyət göstərəcək, eyni zamanda günün 24 saatı təcili yardım xidmətindən yararlanmaq mümkün olacaq.

❑ **Məhəmməd Türkmən**
**Fotlar müəllifindir**

# Azərbaycan müxalifəti Avropa Oyunlarının açılışına dəvət olundu

## Müsavata isə dəvətnamə gəlməyib

**"Azadlıq-2015" seçki blokuna daxil olan siyasi partiyalar iyunun 12-də başlayacaq Avropa Oyunlarının açılışı mərasiminə rəsmi dəvət alıb. Bu barədə qurumdan müsavat.com-a məlumat verilib.**

İyunun 10-da seçki blokunun toplantısı keçirilib. İclasda oyunlara münasibətdə bundan əvvəl müəyyən edilmiş mövqeyə uyğun olaraq törəndə iştirak etmək qərara alınıb. Eyni zamanda siyasi partiyalar dövlət rəhbərliyinə bir daha müraciət edərək, oyunların siyasi məhbuslarsız Azərbaycan şəraitində keçirilməsi üçün addımlar atmağa çağırıb. Açılış mərasimində bundan əvvəlki mövqeyə uyğun olaraq, iştirak etmək qərara alınıb.

**Müsavat başqanının müavini Elman Fəttah** belə bir dəvətin quruma gəlmədiyini söylədi: "Belə bir dəvətin gəldiyi barədə məndə heç bir məlumat yoxdur. Gələrsə belə, iştirak etməyəcəyik. Müsavat Partiyasının Avropa Oyunları ilə bağlı mövqeyi şəffafdır. Biz bildirmişik ki, siyasi məhbuslar azad olunmasa, yarışma boykot edilməlidir".

**Müsavat İcra Aparatının rəhbəri Gülağa Aslanlı** da tədbirdə iştirak etməyəcəklərini açıqladı: "Neçə ay öncədən mövqeyimizi açıq şəkildə bəyan etmişik. Siyasi məhbuslar azad olunmadan, yarışmada iştirak etməyin mənasız olduğunu bildirmişik. Kimlərsə iştirak edəcəksə, öz şəxsi qərarlarıdır. Bu baxımdan "Azadlıq-2015" seçki blokunun qərarı ilə bağlı bir söz deyə bilmərəm".

Belə bir dəvətin rəsmən Müsavat Partiyasına da gəlib-gəlməməsini bilmək üçün partiya rəhbərliyi ilə əlaqə saxladıq. Məlum oldu ki, Müsavat AYO-nun açılış törəninə dəvət edilməyib.

**Qeyd edək ki, "Yeni Müsavat" qəzeti belə bir dəvətin olacağı barədə hələ iki ay öncə yazmışdı.**

❑ **Cavanşir ABBASLI**

# "125-lər" Siyasət Klubundan I Avropa Oyunlarına dəstək

**Qurumun olimpiya oyunları ilə bağlı bəyanatında vurğu Azərbaycanın tanıdılmasına ehtiyac olduğunun üzərindədir. İyunun 10-da "125-lər" Siyasət Klubu I Avropa Oyunları ilə bağlı mövqeyini açıqlayıb. Sənəddə deyilir:"Bir neçə gündən sonra Azərbaycanda I Avropa Oyunlarına start verilir.**

Ölkəmiz çox məsuliyyətli, beynəlxalq miqyaslı bir tədbir ərəfəsindədir. Tədbirin əhəmiyyəti, Azərbaycan həqiqətlərinin çatdırılması, ölkənin PR-ı nöqteyi-nəzərindən hədsiz dərəcədə qiymətlidir. Azərbaycanın tanınmaq, özü də yaxşı yöndən tanınmaq ehtiyacı çoxdur. Öyünəcək məqamlarımız zəngin tarixi mədəniyyətimiz, qonaqpərvər insanlarmız, gözəl təbiətimiz var. Amma ölkədə həllini gözləyən problemlər də az deyil. Sosial problemlərdən uzaq, insan haqlarnın boğulmadığı, konstitusiyamızda təsbit edilmiş bütün azadlıqların tanındığı, hüququn aliliyinə söykənən bir ölkənin təbliğ edilməsi daha qürurverici olar. Ölkənin imicini onun keçmiş mədəniyyəti deyil, daha çox indiki demokratik ab-havası formalaşdırır. Bü, günümüzün reallığıdır. Maraqlıdır ki, ictimai fikir Avropa Oyunlarına münasibətdə iki qütbə ayrılıb. Bir qism tədbirin ölkə nailiyyətlərinin təbliğı üçün fürsət olduğunu iddia etdiyi kimi, digər qism ölkədə mövcud olan problemlərin həlli və gündəmə gətirilməsi üçün üçün bunu əlverişli fürsət hesab edir. Biz "125-lər" Siyasət Klubu olaraq düşünürük ki, istər xarici siyasətdə, istərsə də daxili məsələlərdə problemlərin həllində ölkə olaraq, özümüzə güvənməliyik. Yeni tariximiz bir daha göstərdi ki, ikili standartların hakim olduğu dünya siyasətində heç bir kənar qüvvəyə problemlərimizin həllini etibar etməməliyik. İdman, mədəniyyət, incəsənət insanlıq tarixində heç vaxt sərhəd tanımayıb, siyasətdən yüksəkdə dayanıb. Məhz buna görə də, bir xalqn, bir ölkənin deyil, bəşəriyyətin dəyəri sayılıb. Əksinə, sərhədləri inkar edib, dünyada sülhə və barışa münbit şərait yaradıb. Beynəlxalq statuslu bu növ tədbirlərə qatılmağımızı, ölkəmizin Avropaya tək siyasi deyil, həm də mədəni inteqrasiyası hesab edirik. İlk Avropa oyunlarınının təşkilatçılığı kimi ağır və məsuliyyətli bir işi öhdəsinə götürmüş ölkəmizə uğurlar diləyir və ölkənin demokratikləşməsi istiqamətində də uğurlar qazanmağı , dünya ictimaiyyətinin rəğbətini məhz bu yöndən qazana bilməyi arzulayrıq".

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 126 (6154) 11 iyun 2015

# QAT ermənilərin Bakıya gəlişinə etiraz edir

## Təşkilat iyunun 10-da piket keçirməyə cəhd etdi; **Akif Nağı:** "Bu, şərəf məsələsidir..."

**Qarabağ Azadlıq Təşkilatı (QAT) ermənilərin Bakıya gəlməsinə etiraz olaraq aksiyaların keçirilməsinə başlayıb. İyunun 10-da QAT aksiya keçirməyə cəhd etsə də, alınmayıb. Otuza yaxın QAT üzvü "Rədd olsun ermənilər!" şüarı ilə aksiya keçirməyə cəhd etsə də, buna imkan verilməyib. QAT üzvləri erməni vəhşilikləri ilə bağlı hazırladıqları müraciətləri ətrafda olan insanlara paylayaraq dağılışıblar.**

"Erməni idmançılarının Bakıya gəlməsinə şərait yaradılmasını qınayırıq",- deyən **QAT sədri Akif Nağı** növbəti aksiyaların anonsunu verib: "Ermənistan Azərbaycanın torpaqlarının böyük bir hissəsini hələ də işğalda saxladığı bir vaxt da beynəlxalq tədbirlər adı altında "gediş-gəliş" yaradılmasını düzgün hesab etmirik. Erməni idmançılarının Azərbaycana gəlməsinə şərait yaradanları qınayaraq QAT-ın bütün rayon şöbələrinə etiraz aksiyaları keçirmələri haqqında tapşırıq vermişik. Bizim ermənilərlə bir hesabımız var, o da döyüşərək torpaqlarımızı azad edib, şəhidlərimizin qisasını almaqdır".

**Akif Nağı qeyd edib ki, paytaxtın Nizami rayonu ərazisində aksiya keçirməyə cəhd ediblər:** "Qara Qarayev" və "Koroğlu" metrostansiyası yaxınlığında aksiya keçirməyə cəhd etdik. Ancaq həddindən artıq nəzarət nəzarət olduğuna görə, imkan vermədilər. Ona görə ümumi mövqeyimizi bildirdik, qrup-qrup müəyyən adamlara etirazla bağlı vərəqələr payladıq. Aksiyanı növbəti dəfə üçün



təxirə saldıq. Nə qədər ki, ermənı buradadır, etiraz aksiyaları keçiriləcək. Yaxın günlərdə həm Bakıda, həm bölgələrdə aksiyalar keçirəcəyik və işğalçı Ermənistanın bayraqları yandırılacaq".

**Akif Nağı qeyd edib ki, onların keçirdikləri aksiyaların zəif olmasının səbəbi aksiyalara QAT üzvlərindən başqa, digər vətəndaşların qatılmamasıdır. O, qəzet vasitəsi ilə ölkə əhalisinə müraciət də edib:** "Bütün vətəndaşlarımıza, Azərbaycanı düşünən insanlara, Qarabağ qazilərinə, şəhid ailələrinə, məcburi köçkünlərə müraciət edirik. Vətənpərvər insanlara müraciət edirik. Vətəndaşların öz vəzifə borcunu və əsl simasını ortaya qoyacağı məqamdır. Gücü, imkanı çatan formada hər kəs etiraz etsin, ya təkbaşına, ya bizim təşkilatla birgə. Bu, şərəf məsələsidir. İşğalçı Ermənistanın idmançıları buraya gəlirsə, heç nə olmamış kimi yarışlarda iştirak edirlərsə, deməli şərəfsizliyi boynumuza alırıq. Etiraz aksiyaları vətəndaşların öz borcunu yerinə yetirdiyini və şərəfli vətəndaş olduğunu göstərir. İstərdim ki, vətəndaşlar ermənilərə qarşı etiraz aksiyaları keçirsinlər. biz QAT olaraq öz imkanlarımız daxilində aksiyalar keçiririk".

**Qeyd edək ki, Qarabağ Azadlıq Təşkilatı iyunun 9-da da Birinci Avropa Oyunları çərçivəsində digər ölkələrlə yanaşı, Ermənistan bayrağının da Bakıda qaldırılmasına, erməni idmançılarının Bakıya gözlənilən səfərlərinə qarşı etiraz aksiyası keçirib.** Aksiya iştirakçıları hesab edirlər ki, erməni bayrağının Bakıda qaldırılması bütün Azərbaycana, şəhidlərin ruhuna təhqirdir. Erməni bayrağı dərhal endirilməli və məhv edilməlidir. paytaxtda keçirilən aksiyada xüsusi olaraq vurğulanıb ki, heç bir beynəlxalq hüquq, beynəlxalq təşkilat qarşısında götürülən öhdəlik erməni idmançılarının Bakıya gəlməsi üçün əsas ola bilməz: "Bu gələnlər idmançı deyil, terrorçu, işğalçı Ermənistan rejiminin nümayəndələri, işğal və terror təbliğatçılarıdır. Aksiya iştirakçıları "Erməni! Sən idmançı deyilsən! Sən işğalçısan, terrorçusan! Rədd ol!",- yazılmış plakatlar qaldırıb, mış, şüarlar səsləndirib, Serj Sərkisyan, Seyran Ohanyan, Bako Saakyan, Levon Ter- Petrosyan, Robert Koçaryan kimi hərbi canilərin, uşaq qatillərinin şəkillərini, Ermənistan bayrağını əvvəlcə ayaqlar altına atıb, sonra yandırıb. Qarabağ Azadlıq Təşkilatı bu aksiya ilə bütün Azərbaycan cəmiyyətinə müraciət edib, hər yerdə erməni hərbi canilərinin şəkillərinin, erməni bayraqlarının yandırılmasına çağırıb",- deyə QAT-ın aksiya ilə bağlı mediaya yaydığı xəbərdə bildirilir.

**❑ Röya**

# DİP-də təhsildən kənarda qalan qız uşaqları ilə bağlı müzakirə aparıldı



## **Asim Mollazadə:** "Cəmiyyətin qız uşaqlarına, qadınlara münasibəti dəyişməyincə, nə təhsilsizlik və ya yarımçıq təhsil problemini, nə qadına qarşı zorakılığı, nə də erkən evliliyi aradan qaldırmaq mümkün olmayacaq"

**"Qadın Liderliyi Uğrunda" İctimai Birliyi (QLUİB) və Demokratik İslahatlar Partiyasının təşəbbüsüylə "Qız uşaqlarının təhsildən erkən ayrılmasına necə mane olmalı: problemlər, hüquqlar, həll yolları" mövzusunda debat keçirilib.**

Debatın açılış nitqini edən QLUİB sədri Ülkər Abdullayeva bildirib ki, apardıqları araşdırmalar nəticəsində ölkədə xeyli sayda azyaşlı və yetkinlik yaşına çatmamış qız uşaqlarının icbari təhsildən kənarda qalması hallarının olduğu ortaya çıxıb. Bu problem xüsusilə Bakı kəndlərində, Azərbaycanın cənub və şumal-qərb rayonlarında özünü biruzə verib. Qızlar ya ümumiyyətlə məktəblərə getmir, ya da ibtidai siniflərdən başlayaraq orta məktəbi tərk edirlər. Araşdırmalar zamanı qızların təhsildən erkən ayrılmasının əsas səbəbi kimi valideynlərin təzyiqləri, uşaqların oxumaq istəməməsi və ailələrin maddi imkansızlığı göstərilib. "Bəzi valideynlər bildiriblər ki, qızları yuxarı siniflərdə oxumağa buraxmaq düzgün deyil. Çünki toplum yeniyetmə qızların məktəbə getməsini yaxşı qarşılamır. Valideynlər guya bununla qızlarını kənar təsirlərdən qorumağa çalışırlar. Lakin qızların məcburi orta təhsildən ayrılması cəmiyyətdə bir sıra problemlərə, savadsız qadın ordusunu yaranmasına, erkən nikahlara, qadına qarşı zorakılığa şərait yaradır" - deyən Ü.Abdullayeva bildirib ki, QLUİB Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "İşıqlı gələcək üçün oxu: Qız uşaqlarının təhsildən erkən ayrılmasının qarşısının alınmasına dair maarifləndirmə kampaniyasının və ictimai müzakirələrin təşkili" layihəsinə start verib. Bu layihə çərçivəsində debatlar bu gündən etibarən açıq elan edilir.

**Debatlara Demokratik İslahatlar Partiyası və onun sədri, deputat Asim Mollazadə də yaxından dəstək verəcək.** Debatlar davamlı olacaq və getdikcə daha çox insanı, təşkilatları və dövlət qurumlarını əhatə edəcək. Problemin həlli üçün cəmiyyətin bütün qüvvələri səfərbər ediləcək. "Biz 21-ci əsrin "fatma-tükəzbanları"nı yetişdirmək niyyətində deyilik. Məqsədimiz qız uşaqlarının işıqlı gələcəyini təmin edə bilmək üçün onların orta məktəbdən başlayan təhsillərinə sonadək dəstək verməkdir. Eyni zamanda bu yolda əngəl olmağa çalışan insanları inandırmaq, maarifləndirməkdir" - deyə QLUİB sədri əlavə edib.

**Deputat Asim Mollazadə** çıxışında Azərbaycan qadınlarının tarixi missiyasını xatırladıb. Qeyd edib ki, İslam və Türk dünyasında tarixən lider olan Azərbaycan qadınlarının təhsil hüquqlarının məhdudlaşdırılması, gələcək inkişafların qarşısının kiçik yaşlardan alınması yolverilməzdir. "Qız uşaqlarının nəinki ucqarlarda, hətta ölkə paytaxtının yaxınlığında yerləşən ərazilərdə belə məcburi təhsildən yayındırılması böyük problemdir. Bu problem getdikcə daha da böyüyəcək. Bunun qarşısını təkcə inzibati metodlarla almaq mümkün olmayacaq. Odur ki, cəmiyyət bu istiqamətdə maarifləndirilməlidir. Cəmiyyətin qız uşaqlarına, qadınlara münasibəti dəyişməyincə, nə təhsilsizlik və ya yarımçıq təhsil problemini, nə qadına qarşı zorakılığı, nə də erkən evliliyi aradan qaldırmaq mümkün olmayacaq. Cəmiyyətin bu məsələylə bağlı müqavimətini təşkil etmək vacibdir. Bu istiqamətdə əsas yük məhz qeyri-hökumət təşkilatlarının, məktəblərin, müəllimlərin üzərinə düşür." - dyə Asim Mollazadə bildirib. DİP sədri sözügedən layihəyə öz dəstəyini bu sözlərlə ifadə edib: "Biz də həm partiya, həm də parlamentdə mandat qazanmış qüvvə olaraq bu problemin həllinə dəstək verməyə həmişə hazırıq. Cəmiyyətin təşəbbüslərini dəstəkləyəcəyik və qaldırılan problemlərin həlli, təkliflərinin həyata keçməsi üçün həm parlament, həm də müvafiq dövlət qurumları qarşısında məsələ qaldıracağıq."

**Sonra çıxış edən QHT liderlərindən Yeganə Hacıyeva, Sevil Yusifova, Lətafət Əlizadə, təhsil işçilərindən Gülər Musayeva, Cavid Cəfərzadə, Aynur Zamanova, Aygün Məmmədova, Nəzakət Həsənova və digərləri mövcud problemlər, qanunvericilik, beynəlxalq təcrübə, həll yolları barədə fikir və təkliflərini səsləndiriblər. Debatın sonunda təkliflərdən ibarət paketin hazırlanması, müvafiq səlahiyyətli qurumlara verilməsi qərara alınıb. Həmçinin sözügedən problemin həlli məqsədilə Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Hüquqları üzrə Dövlət Komitəsi, parlamentin müvafiq komitələri və ictimai təşkilatların üzvlərindən ibarət işçi qrupunun yaradılması ideyası səslənib. Bu istiqamətdə müvafiq danışıqların aparılması deputat Asim Mollazadəyə və QLUİB-yə tövsiyə edilib.**

**❑ Vüqar MURAD**

YENİ MÜSAVAT

N 126 (6154) 11 iyun 2015

**Dağlıq Qarabağ məsələsində uzun sürən durğunluqdan sonra bu həftə nizamlama prosesinə müəyyən dinamiklik gələ bilər. Hər halda, Rusiya prezidenti Vladimir Putinin sabah Bakıya başlayacaq iki günlük səfəri buna kövrək ümidlər yaradır. Xəbər verildiyi kimi, Rusiya prezidentin köməkçisi Yuri Uşakov bildirib ki, Putinlə prezident İlham Əliyevin Bakı görüşündə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ətrafında da geniş müzakirə aparılacaq.**



# Putinin Bakı səfəri və yeni Qarabağ açılımı

## Rusiya prezidentinin Azərbaycana başlayan ziyarəti prosesə dinamiklik gətirəcəkmi? Səfər ərəfəsi amerikalı vasitəçinin İrəvana getməsi maraq doğurur; **türkiyəli ekspert:** “Münaqişənin həllində irəliləyiş olacağı təqdirdə də sərhədlər açıla bilər...”



Mustafa Aydın

**“Qarşıdakı danışıqlar zamanı regional gündəmin mühüm aspektlərinin, o cümlədən Dağlıq Qarabağ probleminin nizamlanması və 2014-cü ilin sentyabrında Həştərxanda keçirilmiş dördüncü Xəzər sammitində qəbul edilmiş qərarların yerinə yetirilməsinin gedişi müzakirə olunacaq”**, - deyə köməkçi qeyd edib.

Onun sözlərinə görə, Əliyevlə Putin arasında iyunun 13-də keçiriləcək danışıqlar öncə məhdud heyətlə keçəcək, daha sonra işgüzar səhər yeməyi formatında geniş tərkibdə davam edəcək. Bu da diqqət mərkəzində olacaq mövzuların ciddiliyinə işarə hesab oluna bilər.

***

İki ölkə başçısının Qarabağ mövzusunda konkret hansı aspektləri müzakirə edəcəyi deyilməsə də, bir şey dəqiqdir ki, Azərbaycanın dövlət başçısı məsələdə status-kvonun uzun müddət davam etməsinin Azərbaycan xalqının maraqlarına cavab vermədiyi ali qonağın nəzərinə bir daha çatdırılacaq. Hər halda bir var, bunu başqa-başqa məkanlarda, təşkilatlarda bəyan edəsən, bir də var ki Rusiyanın prezidenti ilə tet-a-tet görüşdə ona üzbəsürət söyləyəsən.

Rusiya isə problemin həllində istəsək də, istəməsək də hələlik açar ölkə olaraq qalır. Bu xüsusda Bakıdakı görüşlərin yekunu olaraq Kreml rəhbərinin Qarabağ mövzusunda verəcəyi bəyanat və açıqlamalar yetərincə ciddi əhəmiyyət kəsb edir. Söhbət həm də Qarabağ ixtilafına dolayısıyla təsiri olan məsələlərdən gedir.

Bəllidir ki, Moskva Azərbaycanın da Ermənistan kimi Avrasiya İqtisadi Birliyinə və Gömrük İttifaqına qoşmaq üçün ciddi səylər göstərir. Bakının isə bununla bağlı konkret şərti var: Azərbaycan üzvlük haqda yalnız Qarabağ məsələsi nizamlanacağı təqdirdə, yaxud işğal altındakı torpaqların azad edilməsində ciddi irəliləyişin olacağı təqdirdə düşünə bilər. Bunu xarici işlər naziri Elmar Məmmədyarov az öncə Moskvaya son səfəri zamanı Kreml rəsmilərinin diqqətinə bir daha çatdırıb.

***

Maraqlıdır ki, şimala qonşumuzun Qarabağ məsələsində hansısa hərəkətlilik göstərməyə başlaması ərəfəsində ABŞ da sanki paralel hərəkətliliyə keçib. Belə ki, ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik İrəvana gəlib. Bu barədə o, özünün twitter səhifəsində yazıb.

“İrəvana qayıtdım və bu gün və sabah Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair müzakirələri gözləyirəm”, - ABŞ həmsədri yazıb. Lakin cənab Uorlik Bakıya da baş çəkəcəyi haqda heç nə yazmayıb. Onun regiona səfər edəcəyi haqda qabaqcadan məlumat da verilməmişdi.

Bu yerdə yada salaq ki, ötən il atəşkəs rejiminin 20 illiyi ilə bağlı irəli sürülən 6 bənddən ibarət nizamlama təklifi məhz amerikalı həmsədr Ceyms Uorlikə məxsusdur. Daha çox “yenilənmiş Madrid prinsipləri”ni xatırladan həmin təkliflər Bakı və İrəvanda birmənalı qarşılanmamışdı.

***

Uorlikin Ermənistana səfəri həm də Türkiyədə kritik parlament seçkilərindən sonraya təsadüf edir. Bəllidir ki, seçkinin nəticələri Ermənistanda da məmnunluqla qarşılanıb. Çünki Türkiyə ermənilərinin dəstəklədiyi, PKK-nın siyasi qanadı sayılan Xalqların Demokratik Partiyası (HDP) ilk dəfə olaraq 10 faizlik barajı aşaraq (12.9%) yeni parlamentdə xeyli yer - 80 mandat qazanıb. Bu partiya isə uydurma erməni “soyqırımı” tanıyır və həmçinin bu məsələni və Ermənistanla sərhədlərin qeyd-şərtsiz açılması məsələsini Türkiyə parlamentində qaldırmaq niyyətindədir.

Bəs qardaş ölkədəki 7 iyun seçkiləri hansısa formada Dağlıq Qarabağ və sərhəd məsələlərinə təsir edəcəkmi? Bu yöndə Ankaraya xarici təzyiqlər necə, bundan sonra arta bilərmi?

“Türkiyəyə ”soyqırım" məsələsində xaricdən güclü təzyiq əks-effekt verir və verəcək". Musavat.com-un məlumatına görə, bu barədə İstanbuldakı “Kadır Xas” Universitetinin rektoru, beynəlxalq əlaqələr üzrə ekspert Mustafa Aydın erməni portalına müsahibəsində bildirib.

“Türkiyə belə hallara təzyiqlərə neqativ reaksiya verir. ”Soyqırımı" bir çox ölkələrin tanımasından sonra Türkiyənin Ermənistanla ümumi dil tapması daha da mürəkkəbləşib. Mən hesab edirəm ki, Ankara və İrəvan birlikdə irəliyə daha çox gedə bilər, nəinki başqa qüvvələrin iştirakı və ya vasitəçiliyi ilə" - qeyd edib ekspert.

Mustafa Aydın saxta erməni genosidi və Dağlıq Qarabağ məsələləri arasında birbaşa bağlılığın olmadığını da qeyd edib. “Bununla əlaqədar prezident Ərdoğan öz mövqeyini dəfələrlə bildirib: sərhədlər Dağlıq Qarabağ münaqişəsi çözüləndən sonra açıla bilər. Ancaq fikrimcə, Qarabağ məsələsində irəliləyiş olacağı təqdirdə də sərhədlərin açılması mümkündür. Lakin Dağlıq Qarabağ probleminin ”genosid" məsələsinə heç bir aidiyyəti yoxdur. Bu - Ermənistanın, Türkiyənin və erməni diasporunun problemidir" - əlavə edib politoloq.

***

**İstisna deyil ki, Vladimir Putinin Bakı səfəri və səfər çərçivəsində onun azərbaycanlı və türkiyəli həmkarı - İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanla görüşlərində Ermənistanla sərhədlər və işğalçı ölkənin blokadası mövzusuna da hansısa şəkildə toxunulsun. Ümumiyyətlə isə, Qarabağ problemi də daxil, regiona yönəlik böyük bir açılıma artıq çoxdan ehtiyac yaranıb. Rusiya və Türkiyə buna girişməyincə bölgədə daimi sülh və təhlükəsizlik əlçatmaz olaraq qalacaq.**

# Çindən Azərbaycana mühüm Qarabağ jesti



**Azərbaycanın işğal olunmuş ərazilərində istehsal olunan məhsulların satışı, turizmin inkişafı, həmin ərazilərə yük daşımaları və s. barədə məlumatlar Çinin “Alibaba” şirkətinin saytından (www.alibaba.com) çıxarılıb. Bu barədə Azərbaycanın Çindəki Səfirliyindən məlumat verilib (APA).**

Məsələ ilə əlaqədar səfirlik əməkdaşı “Alibaba” şirkətinin Pekin şəhərindəki ofisində şirkətin vitse-prezidenti Donqvey Şi (DongWei Shi) ilə görüşüb. Görüş zamanı səfirlik tərəfindən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı geniş məlumat verilib, münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən Çinin də dəstəyi ilə dörd qətnamə qəbul olunduğu diqqətə çatdırılıb.

Həmçinin, Çinin Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdar olduğunu və bu mövqenin 2005-ci ildə Azərbaycan Respublikası Prezidentinin ÇXR-ə rəsmi səfəri zamanı qəbul edilmiş birgə bəyannamədə qeyd olunduğu bildirilib.

Şirkətin vitse-prezidenti Donqvey Şi “Alibaba” şirkətinin siyasi təşkilat olmasa belə, ölkəsinin siyasi mövqeyinə hörmətlə yanaşdığını və qeyd olunan məsələ ilə ciddi məşğul olacaqlarını diqqətə çatdırıb. O, Azərbaycan və Çinin iki dost ölkə olduğunu vurğulayaraq, bu kimi halların gələcəkdə təkrarlanmaması üçün müvafiq işin aparılacağına tam təminat verib və şirkətin ölkəmizlə yaxından əməkdaşlıq etməyə hazır olduqlarını ifadə edib.

# “Kişi gecə evində yatar”

## İzzət Bağırzadə: “Azərbaycan kişilərini avropalılarla müqayisə etməyin”

**Bu günlərdə əməkdar artist, tanınmış müğənni İzzət Bağırzadə və aktrisa-model Tunay Əliyeva arasında qalmaqal yaşandı.**



Belə ki, ANS-də yayımlanan “Evdəyik” verilişində İ.Bağırzadənin “Qadın kişi yanında restoranda hesab verməməlidir. Edən alfonsdur” sözlərinə aktrisa sərt reaksiya verib. O, müğənnini dar düşüncəli adlandırıb. Yaranan qalmaqal mətbuatda, sosial şəbəkələrdə geniş müzakirəyə səbəb olub. Bəziləri müğənnin, digərləri isə Tunay Əliyevanın haqlı olduğunu qeyd ediblər.

Xatırladaq ki, bir neçə il bundan öncə də belə bir qalmaqal yaşanmışdı. Əməkdar artist İzzət Bağırzadə televiziya verilişlərinin birində qadınların açıq şəkildə hər kəsin yanında qəlyan çəkməsini tərbiyəsizlik adlandırmışdı.

**Müğənni İzzət Bağırzadə məsələ ilə bağlı “Yeni Müsavat”ın əməkdaşına danışıb:**

- Mənim 40 yaşım var, iki övlad atasıyam, 26 ildir ki, bu sənətimlə məşğulam, bir gün də olsun işimdə fasilə verməmişəm. Bu müddət ərzində həm ölkədə həm də ölkə xaricində çoxlu sayda konsertlərim olub, kliplərimin isə sayı-hesabı yoxdur, 12-13 yaşımdan - ağlım kəsəndən namaz qılmışam, bir sıra ziyarətgahlarda olmuşam, bu günəcən içki içməmişəm. Bu baxımdan Tunayın bu cür ifadə işlətməsi doğru deyildi. O verilişə hər kəs kimi mənim də ailəm, anam baxır. Haqqımda bu cür ifadə işlədilməsini arzu etməzdim.

Tunay sadəcə hövsələsizlik edərək mənim fikirlərimi axıracan dinləmədi. Lakin o bir xanımdır və onun işlətdiyi hər hansı ifadəyə görə ona qarşı nə efir vasitəsilə, nə də başqa yerdə hörmətsizlik etmərəm. Bu mənim xarakterimə, təbiətimə uyğun deyil. Bu cür hallarla qarşılaşanda istər kişi istərsə də xanım olsun ona sakitcə, mədəni tərzdə cavabını verirəm. Xüsusən də efirdə müzakirə zamanı çalışıram ki, kiminsə qəlbinə toxunacaq söz deməyim.

*- Bəs toylarda?*

- Toylarda çox olub ki, gəlib elə bir mahnı istəyirlər ki, o mahnı ya yoxdur, ya da ki, mənim o mahnıdan qətiyyən xoşum gəlmir. Lakin əgər toyu aparıramsa bütün bunları yola vermək məcburiyyətindəyəm. Hər kəsin müxtəlif psixologiyası var...

*- Deyəsən azərbaycanlı kişilərin avropalılarla müqayisəsini də qəbul etmirsiz?*

- Həmin vaxt verilişdə də bildirdim, indi də deyirəm, gəlin avropalı kişilərlə Azərbaycan kişisini bir-birinə qatmayaq. Hər ölkənin kişilərinin öz xarakteri, öz xüsusiyyətləri, öz mentaliteti var. Buna görə də başqalarının yaşayış tərzini, xarakterlərini özümüzünkülərlə müqayisə etməməliyiq. Mən azərbaycanlıyam və məni başqa ölkənin kişiləri ilə müqayisə etmək lazım deyil. Ola bilsin bu fikirlərimi kimsə qəbul etməsin, lakin bu təbiətim belədir, başqa cür də düşünə bilmərəm.

*- Azərbaycan kişisi necə olmalıdır?*

- Kişi axşam gələr evində yatar. Hansı xanımın xoşuna gələr ki, ömür-gün yoldaşı, övladlarının atası, gecə evə gəlməsin? Şəxsən mən gecə toydan çıxandan sonra birbaşa evimə, ailəmin yanına gedirəm. İnsanın ailəsi, balaları varsa o həmişə evində olmalıdır.

*- Müasir xanımlarda nəyi bəyənmirsiz?*

- Gödək “yubka” geyinib, küçədə əlində siqaret çəkə-çəkə gəzmək və yaxud da cəmiyyət arasında oturub içki içmək müasirlik demək deyil. Və bu mənim xoşuma gəlmirsə bu o demək deyil ki, xanımlar mənim dediyim kimi olmalıdır. Təbii ki, hər kəsin öz düşüncəsi var. Lakin müasirliyi gətirib bu amillərin üzərində qurmaq lazım deyil.

*- Bəs xanım sürücülərə münasibətiniz necədir?*

- Maşın sürən xanımlara heç də pis baxmıram. Lakin əlində siqaret maşın idarə edən xanım kənardan heç də yaxşı təsir bağışlamır. Baxırsan ki, gözəl-göyçək xanımdır, lakin barmaqlarının arasında siqaret... Bu, müasirlik bu deyil.

*- Bir müddət öncə də qəlyan çəkən xanımları da qıcıqlandıran fikir bildirmişdiz...*

- Bəli, xoşuma gəlmir xanım hər kəsin gözü önündə qəlyan çəksin. Bu o demək deyil ki, xanımların qəlyan çəkməsinə qarşıyam. Sadəcə bunu qapalı yerdə etsə daha etik olduğunu düşünürəm.

*- Müğənni Yusif Mustafayev bu yaxınlarda açıqlama verərək bildirdi ki, ailəsində heç bir xanımın mobil telefonu yoxdur, yəni özü buna icazə vermir. Sizin də bu cür qadağalarınız varmı?*

- Bu fikirlə qətiyyən razı deyiləm. Anlaya bilmirəm, xanımın mobil telefon işlətməsində hansı qəbahət ola bilər?..

*- Efirlərdə az görünürsüz...*

- Deməzdim bu belədir. Çünki gün ərzində bəlkə 5 kanalda iştirak edirəm, çağırılan yerə həmişə gedirəm. Məni hansısa verilişə dəvət edəndə ordakı qonaqların kimliyini deyil, yalnız verilişin mövzusunu soruşuram. Görəndə ki, mövzu mənə aid deyil, imtina edirəm. Lakin insanlar artıq efirlərə baxmaq istəmir. Hər kəsin əlində telefon var və yalnız onunla məşğuldurlar. Küçə ilə gedirsən görürsən ki, hamı başını salıb aşağı telefondan başqa heç nəyi görmək istəmirlər.

❑ Xalidə Gəray

# İstanbulda dənizdə azərbaycanlı gəncin meyiti tapıldı

**İstanbulda Haliç körfəzində azərbaycanlı gəncin meyiti tapılıb. Trend Türkiyə mətbuatına istinadən xəbər verir ki, Fatih Haliç körfəzində dənizdən bir kişi meyiti çıxarılıb. Səhər təxminən saat 9 radələrində cəsədi görən sakinlər polisə xəbər verib. Hadisə yerinə gələn dəniz polisi cəsədi sahilə çıxarıb. Polislər meyitin üzərində müayinə aparıblar. Cəsədin üzərindən Azərbaycan vətəndaşı, 24 yaşlı Nicat Kərimli adlı şəxsin sənədi və bəzi qeydlər tapılıb. Hadisə ilə bağlı araşdırma aparılır.**

# Türkiyədə suriyalılar naxçıvanlını öldürdü

**İstanbulun “500 evlər” deyilən məhəlləsində dəhşətli qətl törədilib. Suriyadan qaçqın olan bir neçə nəfər kürd əsilli şəxs 1984-cü il təvəllüdlü Naxçıvan MR Şərur rayon Axaməd kənd sakini Abbasov Vüsal Musa oğlunu vəhşicəsinə qətlə yetirib. Bu barədə Strateq.az-a mərhumun İstanbulda yaşayan həmkəndlilərindən biri məlumat verib.**

Onun dediyinə görə, Vüsal həmin adamlara kirayə ev tapıb, pulunu almağa gedəndə bu hadisə baş verib: “Ev Vüsalın yaxınının olub. Kirayə pulunu da Vüsal alırmış. Onu çağırıblar evə, vəhşicəsinə döydükdən sonra 4-cü mərtəbədən yerə atıblar. Meyiti kəndə yola saldıq. İndicə xəbər verdilər ki, artıq kəndə çatıb”. Mənbənin dediyinə görə, qətli törədən Suriya qaçqınları hələ də tutulmayıb: “İstanbulda Suriyalı qaçqınlar tərəfindən belə hadisələr tez-tez törədilir. Polisin onları tapması qeyri-mümkündür. Yəqin ki, Vüsalın da qatillərini tapmaq mümkün olmayacaq”.



# «Bakcell» «Bethclip» və Xercim.az mobil tətbiqlərini təqdim edir

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti gələcək nəsil mobil texnologiyalar sahəsində dünya lideri olan “Qualcomm” şirkəti ilə birgə əməkdaşlıq çərçivəsində 2014-cü ilin sentyabr ayında start verilmiş “AppLab” innovativ mobil developer layihəsinin ilk iki məzun komandası tərəfindən yaradılmış mobil tətbiqləri böyük məmnuniyyətlə təqdim edir.**

**Birinci mobil tətbiq «Bethclip» adlanır (https://bethclip.com ttps://bethclip.com). Bethclip istənilən kontenti (mətn, şəkil, media, fayl) istənilən platformalar (Android, iOS, Windows, Mac OSX) arasında bir cihazdan digərinə bir kliklə ani olaraq köçürmək imkanı yaradır.**

**Bethclip mobil tətbiqini Android platformalı cihazlar üçün Google Play Store daxil olaraq https://play.google.com/store/apps/details?id=com.bethclip.android linkindən, Apple Store-dan isə https://itunes.apple.com/us/app/bethclip-clipboard-sync/id957669022 linkindən yükləmək olar. Mübadilə buferinin ani sinxronlaşdırılması xassəsinə malik olan bu tətbiq gündəlik işlərimizə rahatlıq və komfort gətirə biləcək birklikli inqilabi həllərdən biridir.**

**Gənc məzunlar komandası tərəfindən təqdim olunan daha bir maraqlı ideya xərcim.az mobil tətbiqidir (Http://xercim.az ttp://xercim.az). Xərcim.az layihəsi hal-hazırda bazarda mövcud olan bütün endirim, bonus, kupon və ümumilikdə loyallıq sistemlərini bir yerdə toplayaraq, həmin sistemlər, istifadəçilərə verilən üstünlüklər, xüsusi və toplu təkliflər, qənaət etmə yolları və tərəfdaşlar haqqında məlumat bazasından ibarət mobil tətbiq və proqram təminatıdır. Xərcim.az mobil tətbiqini Google Play Store daxil olaraq https://play.google.com/store/apps/details?id=az.xercim yükləmək olar.**

**“AppLab” ideyaların, mobil tətbiqlərin və texnologiyaların pilot variantından istifadəyə buraxılan tam hazır varianta qədər çatdırılmasında seçilmiş developerlərə kömək etmək üçün nəzərdə tutulan sürətləndirilmiş icra modelidir. Bu layihənin məqsədi sahibkarların və proqram tərtibatçılarının öz ideyalarını daha sürətlə həyata keçirmələrinə və Azərbaycan və beynəlxalq bazarlar üçün istifadəyə tam hazır mütərəqqi mobil tətbiqlərini yaratmalarına kömək edən effektiv alətlərin təmin edilməsidir.**

**“Belə bir qısa müddət ərzində Applab layihəsinin ilk bəhrələrini görmək bizim çox xoşdur. Dünya üzrə smartfon bazarının artım templəri ilə bərabər mobil tətbiqlərin istifadəsi də artmaqdadır. Azərbaycan bazarında smartfon istifadəçilərinin artan tələbatlarını təmin etmək üçün «Bakcell» developerlərə dəstək məqsədini daşıyan Applab layihəsini təqdim edib. Bununla yanaşı, bu yaxınlarda «Bakcell» şirkəti öz Rouminq və Ulduzum mobil tətbiqlərini də istifadəyə verib və bu tətbiqlər yerli bazarda ən çox istifadə olunan tətbiqlərin ilk 10-luğuna daxildir. Biz inanırıq ki, «Bakcell» şirkətinin dəstəyi ilə yaradılan Bethclip və xercim.az tətbiqləri çox uğurlu olacaq və yaxın gələcəkdə biz daha çox Applab layihələrini təqdim edə biləcəyik”, “«Bakcell»” şirkətinin Baş icraçı direktoru cənaBPDBYB!b Riçard Şirer bildirib.**

**2014-cü ilin sentyabr ayından indiyə kimi Applab layihəsində iştirak etmək üçün 102 ərizəçi qeydiyyatdan keçib. Seçilmiş 56 namizəd arasından təqdim olunmuş 25 ideyadan 15-i Applab İdarə heyəti tərəfindən bəyənilib və onlardan 6-sı proqramda iştirak etmək hüququnu qazanıblar.**

**Layihə çərçivəsində gənc proqramçılar «Bakcell» şirkətinin Sahil ofisində istifadəyə verilmiş «Bakcell»/Qualcomm Applab ofisindən istifadə edərək, pulsuz internet, ofis və təlimlər üçün nəzərdə tutulmuş məkandan və mühitdən, eyni zamanda məhsullarını sınamaq üçün ən müasir mobil telefon və planşetlərdən yararlanırlar.**

**«Bakcell» və Qualcomm şirkətləri tərəfindən təşkil olunmuş ekspertlər komandası gənc proqramçıları lazımi konseptual, dizayn və kommersiyalaşdırma yönümlü vərdiş və biliklərlə təmin edərək, onların yaratdıqları mobil tətbiqlərin yerli və beynəlxalq bazarlarda tanıtdırılmasına kömək edir.**

**AppLab layihəsində iştirak etmək üçün gənc developerlər sadəcə http://goo.gl/6nrfkF linkinə daxil olub qeydiyyatdan keçməli və yaxud öz tərcümeyi-hallarını (CV) və ideyalarının təsvirini bu ünvana göndərməlidirlər: applab@«Bakcell».com**

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra

**Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

## Elan

**Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.**

**Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.**

**Tel: (051) 984-90-63**

**Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.**

**Əlaqə telefonu: (055) 206-14-61**

**Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.**

**Tel: (012) 437-88-05 (13:00-dan sonra)**

**(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)**

## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur “Karl Etorts” firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



# Azərbaycan turizmi Gürcüstana uduzur: səbəb AZAL-ın qiymətləridir...

**Məmməd Əliyev:** "Biz necə Gürcüstanla şərtləri bərabərləşdirə bilərik; təkcə təyyarə biletinin qiymətində fərq 2 dəfədən artıqdır"

**Natiq Cəfərli:** "Artıq Azərbaycanın turizm şirkətləri Gürcüstan aviaşirkətləri ilə müqavilə bağlayaraq, insanlara turları Gürcüstan üzərindən almağı təklif edirlər"

**Artıq yay turizminə start verilib. yay istirahətini xarici ölkələrdə keçirmək istəyənlərin əksəriyyəti sərfəli səyahət paketlərinin axtarışına başlayıb. Bu durumdan karlı çıxmaq istəyən turizm şirkətləri də daha ucuz və daha sərfəli səyahət paketləri təklif etməklə müştərilərinin marağını cəlb etməyə çalışırlar. Ancaq son illərdə Azərbaycan turizm şirkətləri Türkiyə və Gürcüstanla rəqabətdə uduzmağa davam edir.**

İnsanlar daha ucuz səyahət paketlərini Tiflis üzərindən əldə etməyə çalışırlar. Bir tərəfdən ölkədə monopolist mövqeyə sahib olan Azərbaycan Hava Yolları QSC-nin təyyarə biletlərini həddindən artıq baha təklif etməsi, digər tərəfdən manatın devalvasiyasından sonra qiymətlərin bir qədər də bahalaşması insanları qonşu ölkələr üzərindən səyahət etməyə məcbur edir.

Bu barədə "Yeni Müsavat"a danışan **"Fly Travel" turizm şirkətinin direktoru Məmməd Əliyev** də etiraf edir ki, son aylarda müraciətlər kəskin şəkildə azalıb: "İnsanlar daha çox Tiflis üzərindən səyahətə üstünlük verirlər, çünki, bu Bakı ilə müqayisədə iki dəfə ucuz başa gəlir. Bakıda 1500 manata olan paket Tiblisidə 700 manata təklif olunur. Bizim səyahət paketlərinin qiymətinin baha olmasının səbəbi isə AZAL-ın uçuş biletlərini baha təklif etməsidir".

**Yerli şirkətlərin Gürcüstanla rəqabətdə uduzmamaq üçün maksimum endirim edəcəyi ehtimalına gəlincə, M.Əliyev bildirdi ki, bu mümkün deyil:** "Biz necə şərtləri bərabərləşdirə bilərik ki, 350 manata Tiflisdən gedib, Antalyada 3 ulduzlu oteldə bir həftə dincəlmək mümkündür. Ancaq Bakıdan sadəcə aviabilet 500 manatdır".

Turizm şirkəti rəhbərinin sözlərinə görə, Tiflis turizm şirkətlərinin təklif etdiyi paketlərdə Tiflis-Antalya-Tiflis uçuşu da daxil olmaqla 2 nəfərin Antalyada bir həftəlik istirahəti 700 manata başa gəlir, Azərbaycanda isə sadəcə aviabiletlərin xərci bundan daha bahadır: "Eyni şərtlərlə istirahət üçün Bakıda 1600 manat ödəmək lazımdır. Bakı-İzmir-Bakı xətti üzrə 1 həftəlik səyahət paketi 1800 manata başa gəlir. Yenə Tiflis üzərindən bu iki dəfə ucuzdur. Bakı-Barselona-Bakı istiqaməti üzrə 1 həftəlik səyahət qiyməti 900 manatdır, buraya da viza daxil deyil. Montoneqroda 1 həftəlik istirahət isə 2000 manata başa gəlir".

M.Əliyev qeyd etdi ki, Azərbaycanlıların ən çox üstünlük verdikləri istirahət məkanları Antalya, Bodrum və Quş adasıdır ki, bu da Tiflis üzərindən 2 dəfə ucuz başa gəlir. Bu səbəbdən yerli turizm şirkətləri müştərilərini itirirlər. Bakıdan 1500 manata başa gələn səyahət paketi Tiflisdən 800-900 manata başa gəlir. Çünki Bakı-Antalya-Bakı reysinin qiyməti 600 manatdır. Tiflisdən birbaşa uçuş olmasa da, ümumilikdə 300 manata başa gəlir".

**Ekspertin sözlərinə görə, manatın devalvasiyasından sonra qiymətlər daha da bahalaşıb:** "Buna qədər səyahət paketi alan müştərilərimiz də biletləri qaytardılar. Çünki onlar dolların bahalaşmasına görə əlavə vəsait ödəmək istəmədilər. Avropa Oyunlarından sonra dolların yenidən bahalaşacağı haqqında söhbətlər gəzir. Bu bizim işimizə daha da pis təsir edəcək".

Yerli turizm şirkətlərinin ayrı-ayrı ölkələrə təşkil etdiyi səyahət paketləri ilə tanış olduqda isə ortaya bu mənzərə çıxdı.

"Silk way travel" şirkəti müxtəlif istiqamətlərə tur paketlər təklif edir. Məsələn, Berlində 8 günlük istirahətin qiyməti 907 avrodur. Tur paketə aviabilet, 3 ulduzlu oteldə gecələmə, səhər yeməyi, şəhər gəzintisi, müşahidəçi, transferlər və sığorta daxildir. Yalnız viza turun qiymətinə daxil deyil.

"Silk way travel" ilə 1858 dollara 7 gecə, 8 günlük Nyu Yorka səyahət etmək mümkündür. Turun qiymətinə yalnız sığorta və viza daxil deyil.

"Geo Travel" - İstanbula 6 gecə 7 günlük tur təşkil edir. Turun qiyməti 1 nəfər üçün 520 manatdır. Tura oteldə yerləşdirmə, səhər yeməyi, muzeylərə giriş bileti, ingilis dilli bələdçi, nəqliyyat, transferlər daxildir. Ancaq ödənilən qiymətə uçuş biletləri və sığorta daxil deyil.

"Gilan Turizm" Antalyaya 999 manata 8 günlük tur təşkil edir. Tura beşulduzlu 8 gün 7 gecəlik oteldə yerləşdirmə, uçuş xərci və sığorta daxildir.

"Ata Travel" şirkəti isə 1500 manata Xorvatiyada, Adriatik dənizi sahillərində 10 günlük istirahət təklif edir. Səyahət paketinə oteldə yerləşdirmə, səhər və şam yeməyi, Bakı-Split-Bakı reysinə aviabilet, transfer və sığorta xərcləri daxildir.

Araşdırmalarımız nəticəsində ortaya çıxdı ki, Azərbaycanda bəzi turizm şirkətləri səyahət paketlərinin ucuz başa gəlməsi üçün aviabilet və viza xərclərini paketə daxil etmirlər. Bu zaman istifadəçi uçuş xərclərini əlavə olaraq ödəməli olur. Adlarının çəkilməsini istəməyən digər turizm şirkətlərinin nümayəndələri də təyyarə biletlərinin baha olmasının onların işinə mənfi təsir etdiyini bildirdi.

Mövcud durumu dəyərləndirən **iqtisadçı-ekspert Natiq Cəfərli** də bu il turizm şirkətlərinə müraciətlərin az olacağını və bunun AZAL-ın təyyarə qiymətləri ilə bağlı olduğunu vurğuladı: "Artıq turizm mövsümü başlayıb. Ancaq turizm agentliklərinin açıqladığı məlumatlarda deyilir ki, bu il turizm şirkətləri xətti ilə xaricə dincəlməyə gedənlərin sayında kəskin azalma var. Bunun əsas səbəbi iqtisadi məsələlərlə bağlıdır. Digər səbəb isə əhalinin səyahət turlarını Bakıdan deyil, daha ucuz olan Tiflis üzərindən almağa üstünlük verməsidir. Gürcüstan aviaşirkətlərinin uçuş qiymətləri daha ucuz olduğundan azərbaycanlıların da bir çoxu Gürcüstan üzərindən səfərlərə üstünlük verir. AZAL bazarda inhisarçı şirkət olduğundan və ölkədə rəqabətli mühit olmadığından uçuş qiymətləri həddindən artıq bahadır. Bakıdan Barselonaya və geriyə olan tək təyyarə biletinin qiyməti 600-650 manat arasında dəyişir. Həmin bileti Türkiyə və ya Gürcüstan üzərindən alsan təxminən iki dəfə ucuz başa gəlir. Türkiyə üzərindən həyata keçirilən uçuşlarda bəzən təyyarələrdə yerlər tam tutulmadıqda endirimli biletlər əldə etmək mümkündür, şirkətlər tərəfindən bu cür aksiyalar həyata keçirilir. AZAL-da ümumiyyətlə bu cür aksiyalar yoxdur. Bu səbəbdən Azərbaycanda turizm paketlərinin baha olmasının əsas səbəbi təyyarə biletlərinin qiymətinin baha olması və turizm şirkətlərinin özlərinin izafi xərclərinin çox olmasıdır. Buraya əlavə vergi xərclərini və lisenziyanın alınması üçün ödənilən qeyri-leqal ödənişləri də daxil etsək turizm şirkətlərində təklif olunan paketlərinin nə üçün baha olmasını demək çətin olmaz".

**N.Cəfərli bildirdi ki, onda olan məlumata görə, artıq Azərbaycanın turizm şirkətləri Gürcüstan aviaşirkətləri ilə müqavilə bağlayaraq, insanlara turları Gürcüstan üzərindən almağı təklif edirlər:** "Təbii ki, bu daha ucuz başa gəlir, insanlar da məmnuniyyətlə bu turların alınmasına üstünlük verirlər. Avropa ölkələrinə istirahətə gedənlərə bu cür paketlər daha sərfəli olur. Digər tərəfdən insanların internet üzərindən xarici səyahət paketlərini almaq imkanları var. Bu da yerli turizm şirkətlərinə müraciət edənlərin sayının azalmasına səbəb olur".

❑ Nərgiz LİFTİYEVA

# Azərbaycanda suçiçəyinə böyüklərin də tutulma halları artıb

**Adil Qeybulla:** "İstənilən infeksion xəstəlikdən sonra müəyyən fəsadlar qala bilər..."



**Son vaxtlar məktəb və uşaq bağçalarında su çiçəyi xəstəliyi geniş yayılıb. Maraqlısı isə budur ki, xəstəlik uşaqlarla yanaşı, böyüklər arasında da yayılmaqddadır. Bəs su çiçəyi xəstəliyi nədir və ondan necə qorunmaq olar?**

Tibbi bilgilərə görə, su çiçəyini herpetik viruslardan biri törədir. Ümumiyyətlə, el arasında belə bir söz var ki, su çiçəyi xəstəliyinə tutulmuş insanlar sudan uzaq olmalı, suda yuyunmamalıdırlar, çünki su çiçəyi sudan "qorxur".

Xəstəliyinin ilkin əlamətləri qızdırma, narahatlıq, iştahanın və yuxunun pozulması ilə müşahidə edilir. Xəstəlik nəticəsində ağırlaşmalar da meydana çıxa bilir: laringit, otit, bronxit, pnevmoniya hətta sepsis kimi ağırlaşmalara da rast gəlinir. Bu xəstəlik uşaqlıq dövründə çox yüngül, dəridə qaşıntılı, kiçik, yumru suluqlarla müşahidə edilir. Böyüklərdə isə bir qədər ağır keçir.

Yüngül keçirilən suçiçəyi infeksiyasında suluqların sayı 10-20-yə, ağır keçən xəstəlikdə isə 300-500-ə çatır. Suluqlar zamanla qabıqlanır və təxminən iki həftə içində tökülür. Suluqlar içindəki maye 5-6 günə quruyur və yoluxuculuğu itir. Xəstəlik zamanı gözlərdə və ağız içində də səpkilər ortaya çıxa bilər. Suçiçəyi xəstəliyi 2-3 həftə davam edir.

**Dünyada bu xəstəliyə qarşı peyvəndləmə aparılır. Lakin bizdə, suçiçəyinə görə vaksin tətbiq edilmir. Tibb elmləri doktoru, professor Adil Qeybulla xəstəlik tam müalicə olunmazsa, müəyyən fəsadlar yarada biləcəyini dedi:** "İstənilən infeksion xəstəlikdən sonra müəyyən fəsadlar qala bilər. Suçiçəyi də o sıradadır. Əgər bu xəstəlik tam müalicə olunmazsa və sona qədər rejim gözlənilməzsə bu zaman xəstələrdə müxtəlif fəsadlar yarada və ağırlaşmalar ola bilər. Ona görə də su çiçəyi xəstəliyi zamanı yataq rejimi gözlənilməlidir. Xəstəlik zamanı üzdə olan səpkiləri yandırmaq, qaşımaq olmaz. Bu zaman üzdə izlər qala bilər. Dəridəki səpgilərə "brilyant yaşılı" ("zelyonka") və ya kalium-permanqanat məhlulu ("marqansovka") sürtmək lazımdır. Bu, dərideki qaşınmanı azaltmağa, qabarcıqların irinləməsinin qarşısını almağa, onların tez quruyaraq yerində qartmaq əmələ gəlməsinə kömək edir. Maye qəbulu çox olmalı, orqanizmin möhkəmlənməsinə yönəldilən terapiya və həkim müalicəsi və nəzarəti olmalıdır. Karantin deyilən dövr isə bir həftə olur. Bu dövr ərzində xəstəlik artıq öz əlamətlərini göstərir. Xəstəlik keçirən adamda təxminən bir aydan sonra ömürlük immunitet yaranır".

❑ Günel MANAFLI

YENİ MÜSAVAT

Son səhifə

N 126 (6154) 11 iyun 2015



## İlin ən romantik sevgilisi

**17 yaşlı qazax gənc qız imtahan stressini ata bilmədiyi üçün sevgilisi onun yerinə imtahana girib. 20 yaşlı Ayan Zademov sevgilisinə bənzəmək üçün süni saç taxıb, makiaj edib və qadın paltarları geyinib. NTV-nin xəbərinə görə, imtahan nəzarətçiləri Zamedovun yalanını ortaya çıxarıb. Gənc oğlana sual verən nəzarətçilər onun səs tonunda problem olduğunu başa düşüb. Nəzarətçilər "əvvəlcə bir qızın başqasının yerinə imtahana girdiyini düşündük. Daha sonra onun qız deyil, oğlan olduğunu başa düşdük".**

A.Zademova başqasına yerinə imtahana girmək istədiyi üçün 200 min dollar pul cəzası verilib. Sosial mediada məşhurlaşan A.Zademov "ilin ən romantik sevgilisi" adını qazanıb. Məşhur bir iş adamı Zademovun cəzasının yarısını ödəyib.



## Yemək üçün 2,3 milyon ödədi

**Xeyriyyəçilərin yardım toplamaq için gerçəkləşdirdiyi Varen Buffetlə günorta yeməyi üçün 2,3 milyon dollar ödənilib. Amerikanın ən zəngin iş adamlarının Verren Buffet yeməyi üçün yedikləri hərrac yeməyini çinli bir oyun şirkəti qazanıb. 2,3 milyon dollar bu günə qədər ödənilən ən yüksək məbləğ deyil. İndiyədək Buffetlə günorta yeməyi üçün ödənilən ən yüksək məbləğ 3,5 milyon dollar olub. Bu məbləği sinqapurlu milyarder Andi Çua ödəmişdi.**

# Ən sağlam insanların doğulduğu ay

**May ayında doğulanlar ən sağlam insanlar hesab olunur. Amerika tibb işçiləri tərəfindən 30 il ərzində təxminən 2 milyon insanın xəstəliyinin araşdırılması nəticəsində xəstəliklərə meylliliklə insanların doğulduğu ayların arasındakı qarşılıqlı əlaqə müəyyən edilib. Statistik göstəricilər ürək-damar çatışmazlığının mart, diqqət çatışmazlığı və hiperaktivlik sindromunun (DÇHS) və avitaminozun noyabr, asma xəstəliyinin iyun ayında doğulanlarda daha çox müşahidə olunduğunu təsdiqləyir. Həmçinin, müəyyən olunub ki, ən möhkəm sağlamlıq may ayında doğulanlarda olur, oktyabrda dünyaya gələnlər isə, təəssüf ki, müxtəlif xəstəliklərdən əziyyət çəkirlər. Tədqiqatlar 1985-2013-cü illərdə dünyaya gəlmiş pasiyentlərin tibb kartları əsasında aparılıb.**



# 43 il boş yerə həbsdə yatdı

**ABŞ-ın Luiziana ştatında məhkəmə 40 ildən çox təkadamlıq kamerada saxlanılan məhbusu azadlığa buraxıb. Hakim Cames Bradi ittihamçılara 68 yaşlı Albert Vudfoksu üçüncü müddətə mühakimə etməyi qadağan edib. Hakimin qərarından bir neçə gün keçmiş Vudfoks azadlığa çıxa bilər. O, 1972-ci ilin aprelindən bəri təkadamlıq kamerada cəza çəkir. Vudfoks həbsxana qiyamı zamanı mühafizəçini qətlə yetirməkdə ittiham edilib.**

Vudfoks mühafizəçinin qətlinə görə iki dəfə ittiham edilib. Hər iki ittiham sonradan ləğv olunub. O, bütün ittihamları rədd edir. 23 saat təcridxanada saxlanılan Vudfoks, yalnız bir saat tək başına kamerasından kənar gəzintiyə çıxıb, onun həbsxana şəraitini təsvir edən məhkəmə sənədlərində bu haqda deyilir. Silahlı qarətə görə məhkum edilərək həbs edilmiş Vudfoks sonradan həbsxanada baş vermiş qiyam zamanı türmə işçisi Brent Milleri otbiçən bıçaqla öldürməkdə günahkar bilinib.





## Casus üzük

**İngiltərənin zinət əşyaları dizayn edən şirkəti Steve Bennett içində izləmə cihazı olan xüsusi üzük hazırlayıb. İngiltərənin "Daily Mail" qəzetinin xəbərinə görə, kənardan adi üzük kimi görünən üzüyün brilyant qaşının altında blutuz texnologiyası ilə çalışan cihaz yerləşdirilib. Üzüyün dizayneri olan Benettin sözlərinə görə, onun belə hazırlanmasının səbəbi GPS ilə təqib imkanı olmasıdır. Beləliklə, üzüklərin oğurlanmasının qarşısını almaq mümkün olacaq. Yeni texnologiya ilə çalışan üzüyün köməyi ilə qısqanc kişilər də sevdikləri qadını izləyə biləcəklər. İnternet üzərindən üzüyü satan Gemporia şirkətinin sahibi Benett bu xüsusi üzüyün kişilərin çox işinə yarayacağını, satışların rekord dərəcədə artacağını deyib. Lakin mağaza rəhbərliyi üzüyün yeni sahibinin təqib cihazından xəbərdar olmasının önəmli olduğunu vurğulayıb.**




**QOÇ** - İxtiyarınızda olan bu təqvimdə üzərinizə düşən başlıca vəzifə ədalətli qərarlar çıxarmaqdır. Baş verən situasiyaları düzgün qiymətləndirin. Yeni qərarlar səmərə verə bilər.

**BUĞA** - Ümumi çalarlarına görə, uğurlu gün hesab etmək olar. Qarşılıqlı münasibətlərdən tutmuş əməli fəaliyyətə qədər hər şey zövqünüzə uyğun olacaq. Uzaq səfərə çıxmağa, qonaq getməyə dəyər.

**ƏKİZLƏR** - Bürcünüzün ən aktiv dövrü olduğundan göstərilən müddətdə uğurlu anlarınız çox olacaq. Odur ki, gün ərzində canfəşanlığınızı daha da artırmalısınız. Axşama yaxın sürprizlər mümkündür.

**XƏRÇƏNG** - Fəaliyyət zəminində uğurlarınız mümkündür. Bunun üçün ilk növbədə işgüzar sövdələşmələrinizin sayını artırmalısınız. Amma səhhətinizi də qorumalı, mübahisədən qaçmalısınız.

**ŞİR** - Ciddi işlərin həllinə həvəs göstərməyin. Əks təqdirdə sizə mane olanlar tapılacaq. Yaxşı olar ki, əsas diqqətinizi istirahətə yönəldəsiniz. Ürəyiniz istəsə, qonaq getmək də olar.

**QIZ** - Daxili sıxıntılarınızın xeyli azalacağı gözlənilir. İstənilən prosesdə ədalət prinsiplərindən bəhrələnin. İmkan verməyin ki, sizi aldatsınlar. Sevgidə qətiyyət göstərin.

**TƏRƏZİ** - Risk etməyə məhkumsunuz. Çünki mövcud ideyalarınızı kerçəkləşdirməkdən ötrü başqa yolunuz qalmayıb. İndi güzəştə getmək yalnız zərərinizə işləyə bilər. Axşam qonaq getmək maraqlı olacaq.

**ƏQRƏB** - Yeniliklər yolunuzu gözləyir. Rastlaşdığınız insanların əksəriyyəti qayğılarınızı sizə unutduracaq. Zamanı geri qaytarıb səhvinizi düzəltməkdənsə, real hədəflərə doğru irəliləyin.

**OXATAN** - Bəzi qanqaraçılıqlar gözlənilsə də, səbr nümayiş etdirməlisiniz. Əmin olmadığınız proseslər barədə qəti fikir söyləməyin. Bir sözlə, riskə getmək, mübahisə etmək, səfərə çıxmaq olmaz.

**OĞLAQ** - Daxili sıxıntılarınızın artacağı mümkündür. Bu isə ətrafınızda olan insanların etibarsızlığından doğacaq. Bir tərəfdən səhhətinizdə, digər tərəfdənsə münasibətlərinizdə problemlər mümkündür.

**SUTÖKƏN** - Kənardan kömək olmasa, hər hansı nailiyyətə yetişə bilməyəcəksiniz. Ümumiyyətlə, təkbaşına heç bir iş görməməlisiniz. Bu gün yeganə uğurunuz ailə-sevgi münasibətlərində mümkündür.

**BALIQLAR** - Gərgin situasiyalarla rastlaşma ehtimalınız var. Ələlxüsus da kənar təsirlər əsəblərinizi qabarda bilər. Təmkinli olun. Səfərə çıxmaq istəyirsinizsə, bu planı saat 12-yə qədər reallaşdırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Bu da ağıllı avtomobil



**Amerikada hazırlanan və sükana yerləşdirilən bir sistem toxunma və nəfəs alma yolu ilə sürücünün içkili olduğunu təsbit edir. Amerikalıların hazırladığı elektrikli sistem içkili sürücülərin etdiyi qəzaların qarşısını alacaq. Sürücülərin içki içdikləri zaman avtomobillər idarə etdiklərini əngəlləyən sistem "Təhlükəsizlik üçün içki təsbit sistemi" adlanır. Mexanizmin çalışması üçün sükanın ətrafına toxunma və nəfəs yolu ilə içkini müəyyənləşdirən sistem yerləşdirilib. 2008-ci ildən bəri mütəxəssislərin üzərində çalışdıqları sistem 5 il ərzində istifadəyə veriləcək.**

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300